# İran-Ermənistan münasibətləri:

## geosiyasi reallıq *versus* siyasi iddialar

Vüsal QASIMLI
Zaur ŞİRİYEV
Zülfiyyə VƏLİYEVA

BAKI 2011

# MÜNDƏRİCAT

Giriş .......... 4
1. İran-Ermənistan siyasi münasibətləri.......... 10
1.1. İran-Ermənistan siyasi münasibətləri:
geosiyasi reallıq və doktrinal prinsiplərin tərs mütənasibliyi .......... 10
1.2. İranın Ermənistan üçün həyati əhəmiyyəti.......... 18
1.3 Ermənistanın İran üçün "strateji" əhəmiyyəti.......... 24
1.4. İranın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi .......... 26

2. İran-Ermənistan iqtisadi münasibətləri.......... 29
2.1. İranın qazandığı "işıq çatışmazlığı" sindromu.......... 31
2.2. İranın Ermənistanı qaz dəhlizinə çevirmək istəyi.......... 32
2.3. Ermənistan dəmir yolları üçün "depo"dur.......... 34
2.4. Öz əhalisinə subsidiyaları azaldan İran Ermənistana daha çox yardım edir.......... 36
2.5. Ermənistana gedən "qara yollar".......... 36
Nəticə .......... 38
Biblioqrafiya .......... 42

# Giriş

Beynəlxalq münasibətlər sistemində 1990-cı illərin əvvəlində köklü dəyişikliklərin baş verməsi beynəlxalq siyasətin "yeni dünya nizamı" adı altında formalaşdırılmasına zəmin yaratmışdır. Bu da öz növbəsində dövlətlərin ikitərəfli və çoxtərəfli münasibətlərini yeni çağırışlara görə formalaşdırılması zərurətini ortaya çıxarmışdır. Postsovet məkanının geosiyasi mərkəzində yerləşən Qafqaz-Xəzər regionu 1990-cı illərdən bəri dünya siyasətində klassik qaydalar üzrə aparılan yeni böyük oyunun ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Bu baxımdan Cənubi Qafqaz dövlətlərinin müstəqilliklərini bərpa etmələri və "köhnə sistemdən" yeni dünya nizamının formalaşmasına keçid alması Azərbaycan və Gürcüstanın timsalında müharibə, itirilmiş ərazilər və təcavüzkar separatizmin intişarı, Ermənistanın timsalında isə bütövlükdə regionda sabitliyin bərqərar olmasına əngəl törədən qüvvənin meydana gəlməsi ilə nəticələnmişdir.

Sovet İttifaqının süqutu Cənubi Qafqaz regionu ilə tarixi və mədəni baxımdan dərin bağlılığı olan İran İslam Respublikası (İİR) üçün yeni fürsətlər və praqmatik xarici siyasət həyata keçirmək imkanları yaratmışdır. 1979-cu ildə baş vermiş islam inqilabının qələbəsindən sonra Qərbin təcridi ilə üzləşən rəsmi Tehran üçün bu şans islam inqilabı ideologiyasına uyğun olaraq siyasətini keçmiş SSRİ-nin müsəlman respublikalarına doğru istiqamətləndirməsinə imkan qazandırmışdır. Geosiyasi reallıqda keçən əsrin 90-cı illərinin bu yeni siyasi mühiti İrana yeni imkanlar verdiyi halda, Cənubi Qafqaz ölkələrini daha çətin sınaq qarşısında qoymuşdu. Bu, Azərbaycanın timsalında tarixi bağlılıqdan istifadə etmək baxımından yeni fürsətlər və eyni zamanda, çətinliklər doğururdu. "Yeni dünya nizamı"nda Cənubi Qafqaz regionunun müstəqilliklərini bərpa edən dövlətlərində xarici siyasət və müttəfiqlik münasibətlərini müəyyənləşdirərkən mədəni, irqi və tarixi yaxınlığın əsas alınacağı fikri hakim idi. Bu yanaşmada Azərbaycan Respublikasının Sovet İttifaqının dağılmasından sonra təbii müttəfiqi olacaq dövlətlərdən biri də İran olmalı idi. Bunu İranın xarici siyasət maraqları və geosiyasi reallıq tələb edirdi.

Belə ki, İran 1979-cu ildən etibarən milli maraqları zəminində xarici siyasət formalaşdırarkən, bu məqsədlərə xidmət edən siyasi hədəf və strategiyalar da müəyyənləşdirmişdir.[1] Yeni xarici siyasətin tərkib hissəsi olaraq "islam cəbhəsində liderliyə" hədəflənmiş bu strateji yanaşma öz ifadəsini İran konstitusiyasında tapmışdı.[2] Sovet dövründə İran daha praqmatik xarici siyasət həyata keçirdiyini və ideoloji yanaşmaların milli maraqlarının əsas tərkib hissəsi olmadığını iddia etsə də, bu gün də rəsmi Tehran "şiə

1 Tensions in Iran's National Security Strategy http://reut-institute.org/en/Publication.aspx?PublicationId=1769

2 İran konstitusiyasının 11-ci maddəsinə görə, "Bütün müsəlmanlar tək bir millətdir. İran İslam Respublikası islam dünyasının siyasi, iqtisadi və mədəni birliyini təmin etməyə çalışmalıdır". Bax: http://www.servat.unibe.ch/icl/ir00000_.html

ideologiyasının məqsədinin islam birliyini möhkəmlətmək olduğunu"[3] bildirir. İranın dinə söykənmiş ideoloji yanaşması beynəlxalq münasibətlər sahəsində tanınmış alim Samuel Hantinqtonun "Sivilizasiyaların toqquşması" nəzəriyyəsində də öz əksini tapmışdır. O yazır: "Ölkələr özlərinə bənzər mədəniyyətə malik ölkələrin tərəfinə qatılmağa, ortaq bir mədəniyyəti paylaşmadıqları ölkələrlə isə tarazlığı qorumağa meyil göstərəcəklər".[4] Bu məqamda Hantinqtonun ideyaları mövcud reallığın bütün komponentləri ilə uyğunluq təşkil etməsə də, 1997-ci ildə seçkilərdə qalib gələrək İranın prezidenti olan Seyid Məhəmməd Xatəmi dövründə xarici siyasət kursunda "yenilik", "mədəniyyətlər ittifaqı" kimi sülhsevər iddialarla beynəlxalq aləmdə ölkənin müsbət imicinin formalaşdırılmasına çalışılmışdır.

Lakin Şərq blokunun və Sovet İttifaqının süqutundan sonra İranın bu regiona istiqamətli siyasəti "müsəlman həmrəyliyi"ni dəstəkləyən elementləri özündə əks etdirsə də, eyni vaxtda dualizm kimi özünü büruzə vermişdir. Xüsusilə, keçmiş Yuqoslaviya ərazisində müsəlmanların himayədarı rolunu öz üzərinə götürən rəsmi Tehran buradakı müsəlman xalqlarının müstəqilliyə qovuşmasına gizli yollarla dəstək vermişdir. Bosniya müsəlmanlarının lideri Aliya İzzetbəyoviçin 1991-ci ildə Tehrana səfəri ilə çiçəklənən İranın Balkan siyasəti çox keçmədən bu ölkəyə maddi və silah yardımları ilə müşayiət olunmuşdur. ABŞ Konqresinin açıqladığı[5] və bu dövrdə Serb qaynaqlarının təsdiqlədiyi[6] faktlara əsasən demək olar ki, məhdud resurslarla da olsa İran bu regiondakı müsəlmanlara maddi və mənəvi dəstək nümayiş etdirmişdir.

Balkanlardan fərqli olaraq 90-cı illərə qədər Cənubi Qafqaz siyasətini Moskva vasitəsilə müəyyənləşdirən İranın bu dövrdə Sovet İttifaqındakı müsəlmanlara dəstək nümayiş etdirəcək addımları istisna sayılacaq qədər az olmuşdur. Bunun əsas səbəbi Sovet İttifaqının İranda rejim əleyhdarı olan şəxslərə siyasi dəstək verməkdən çəkinməsi idi. Çünki islam inqilabının ilk mərhələsində (1979-1983-cü illər) İranda minlərlə şəxs, xüsusilə "Tudə" partiyasının üzvləri kommunist ideologiyasını yaymaqda ittiham olunaraq həbs olunmuşdu. [7] İranın qonşuluğundakı Cənubi Qafqaz regionunda Ermənistanın işğalçılıq siyasəti zəminində başlayan Dağlıq Qarabağ müharibəsi ərəfəsində bu ölkənin müsəlmanlara qarşı siyasəti olduqca təzadlı olmuşdur. Belə ki, Balkanlardan fərqli olaraq İranın müharibə ərəfəsində müsəlmanların ermənilər tərəfindən qətlə

3 Bax: http://www.shiitenews.com/index.php?option=com_content&view=article&id=2406:hia-ideology-seeks-to-create-muslim-unity-&catid=58:iran&Itemid=27

4 Huntington, Samuel (2006), *Medeniyetler Çatışması ve Yeni Dünya Düzeninin Yeniden Kurulması*", (Çeviren: Mehmet Turhan, Cem Soydemir), Okuyanus Yayınları, s.268.

5 Ətraflı məlumat üçün bax: Clinton-Approved Iranian Arms Transfers Help Turn Bosnia into Militant Islamic Base, Congressional Press Release, US Congress, 16 January 1997 ;Serb leader: U.S. helped Iran arm Bosnians, http://www.militarytimes.com/news/2009/08/ap_us_arms_bosnia_082609/

6 Yossef Bodansky & Vaughn S. Forrest, Iran's European Springboard?, September 1, 1992, http://www.srpska-mreza.com/Bosnia/bodansky1.html

7 Akdevelioğlu, Atay, "İran İslam Cumhuriyeti'nin Orta Asya ve Azerbaycan Politikaları", *Uluslararası İlişkiler*, Cilt 1, Sayı 2 (Yaz 2004), s. 132

yetirilməsinə göz yumması və bununla yanaşı, Ermənistanla münasibətləri normallaşdırması onun "ikili siyasətini" və ideoloji əsaslara dayanan xarici siyasətinin boşluğunu göstərmişdir. Çünki əslində İran dövlətinin ideologiyası müsəlmanları müdafiə edərək təhlükəsizlik siyasətinin davamlılığını təmin etmək üzərində qurulmuşdu. Dağlıq Qarabağ münaqişəsinə müsəlmanların qətliamı ilə yanaşı, tarixi islam mədəni irsinin məhv edilməsi baxımından yanaşdıqda ortaya çıxan mənzərə daha acınacaqlı görünür. Bu dövrdə İranın maddi və mənəvi dəstəyinə ehtiyacı olan Azərbaycan üçün bu ölkənin Ermənistanın işğalçılıq siyasətinə dəstək verməməsi və bu məsələdə prinsipiallıq nümayiş etdirməsi kifayət edərdi. Rəsmi Tehranın çaşqınlıq yaradan ermənipərəst mövqeyi xarici ekspertlərin məqalələrində də öz əksini tapmışdır. İran üzrə tədqiqatlar aparan bu ekspertlərin yazılarında birmənalı olaraq İranın Dağlıq Qarabağ münaqişəsi zamanı Ermənistanı dəstəkləyərək Azərbaycanın zəifləməsini istədiyi qeyd olunur.[8] Eyni zamanda, xarici ekspertlərdə belə bir fikir formalaşmışdır ki, Dağlıq Qarabağ müharibəsinin gedişində Araz çayı vasitəsilə İrana sığınmağa məcbur olan azərbaycanlılar burada ciddi humanitar böhran təhlükəsi ilə üzləşmişlər.[9] Bunun baş verməsi və 1993-cü ilin sentyabr ayında Naxçıvan anklavı ətrafında döyüşlərin getməsi Dağlıq Qarabağdan 200 minə yaxın insanın məcburi şəkildə İran sərhədinə üz tutması ilə birbaşa bağlı olmuşdur.[10] Bu hadisələrdən sonra İran daxilində hakim rejimin Ermənistan siyasətinə qarşı kəskin çıxışlar olmuş, Ermənistanın Tehrandakı səfirliyi önündə etiraz aksiyaları keçirilmiş, "Cahane İslam" kimi mətbu orqanlarda rəsmi Yerevan ilə bütün sferalarda əlaqələrin dondurulması tələbini əks etdirən yazılar dərc edilmişdir.[11] Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal edilməsi nəticəsində hüquqla tənzimlənməyən nəzarətsiz ərazilər hesabına süni İran-Ermənistan sərhədi formalaşmışdır.

Yuxarıda qeyd edilənlər İranın xarici siyasətindəki doktrinal təlqinlər və prinsipləri şübhə altına qoyur. Belə ki doktrinal təlqin hesab olunan "islam ölkələri ilə həmrəyliyin təmin olunması" istehzalı şəkildə müsəlman ölkənin torpaqlarının işğalına göz yumulması kimi xarakterizə edilmişdir. Halbuki İranın şimal bölgələrində yaşayan əhalinin enerjiyə olan tələbatını ödəmək üçün lazımi infrastrukturun olmamasını nəzərə aldıqda, Ermənistan ilə bu sferada əlaqələrin inkişafına cəhdlərin uğursuz olduğu aydın görünür. Ümumiyyətlə, İranın 90-cı illərə qədərki praqmatizmdən uzaq xarici siyasəti regionda rəsmi Tehranın maraqlarına cavab verməyən müttəfiqlik münasibətlərinin formalaşmasına və onun gələcəyinə bir-

8 Iran's Security Policy in the Post-Revolutionary Era, *Impact on Foreign Policy*, RAND Report, 2001, http://www.rand.org/pubs/monograph_reports/MR1320/MR1320.ch6.pdf

9 Olivier Roy, "The Iranian Foreign Policy Toward Central Asia", http://www.eurasianet.org/resource/regional/royoniran.html

10 Abdollah Ramezanzadeh,Iran's Role as Mediator in the Nagorno-Karabakh Crisis, Bruno Coppieters (ed), Contested Borders in the Caucasus, Chapter II, VUB University Press, 1996, p. 66

11 Yenə orada, s.67

başa təsir edən irihəcmli layihələrdən uzaqlaşmasına gətirib çıxarmışdır. Halbuki İranın Bakı-Tbilisi-Ceyhan boru kəməri və Orta Asiya regionunu Türkiyə üzərindən Avropaya bağlayan Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRACECA) layihələrindən kənarda qalması nə praqmatizmə, nə də ki rəsmi Tehranın milli maraqlarına uyğun olmuşdur.

İranın 90-cı illərdəki xarici siyasət kursu, yuxarıda qeyd olunanlardan da göründüyü kimi, uğursuzluqla nəticələnsə də, Ermənistanın mənafeyi baxımından mənzərə fərqli olmuşdur. Belə ki, Ermənistanda İran ilə münasibətlər digər qonşularla uğursuz əlaqələr fonunda fürsət kimi qiymətləndirilir. Xüsusilə, 1994-cü ildə Dağlıq Qarabağa dair atəşkəs sazişinin imzalanmasından sonra rəsmi Yerevanın Qərb cəbhəsində yer alması üçün ABŞ və Qərb ölkələri tərəfindən edilən cəhdlərdə artım müşahidə olunurdu. Bunun ən yaxşı nümunəsi kimi hələ 90-cı illərdən Ermənistanın Türkiyə vasitəsilə Rusiyadan uzaqlaşaraq Qərb cəbhəsində yer alması fikri formalaşmışdı. Məhz Ermənistanın yalnız Rusiya ilə bağlılığına görə bu strateji seçimi edə bilməyəcəyi düşüncəsi əks olunsa da, İran faktoru unudulurdu. Belə ki, 90-cı illərdən etibarən Ermənistanın Qərbdən (Türkiyədən) asılı vəziyyətə düşməsinin səbəbi İran alternativinin olmasında idi.[12] Bu kontekstdə İranın regional gücünü və liderlik iddialarını məhdudlaşdıra biləcək tək ölkənin Türkiyə olduğu da aydın göründü.

Aşağıdakı amilləri nəzərə aldıqda Ermənistan üçün İran ilə münasibətlər mühüm əhəmiyyət kəsb edirdi. Belə ki, bu münasibətlər ona:

*strateji* - işğalçılıq siyasəti nəticəsində regiondakı təcriddən qurtulmaq imkanı verirdi;

*coğrafi* - dənizlərə çıxmaq şansı qazandırırdı;

*geosiyasi* - İranı Azərbaycandan uzaqlaşdıraraq bitərəfliliyini təmin etmək imkanı yaradırdı.

Tarixi inkişaf baxımından Ermənistanla İranın yaxınlaşması 2001-ci ildə ABŞ-ın antiterror əməliyyatları ilə Əfqanıstana müdaxiləsi və 2008-ci ildə Rusiya ilə Gürcüstan arasındakı avqust müharibəsi dövrünə təsadüf edir. Əgər 2001-ci ildən sonrakı münasibətlərin inkişafında daha çox maraqlı tərəf kimi İran çıxış edirdisə, 2008-ci ilin avqust müharibəsindən sonra Ermənistanın illər boyu formalaşdırdığı "özünütəcrid" siyasətində Rusiya ilə dayaq nöqtəsi olan Gürcüstanın geosiyasi reallığı dəyişdirməsi mühüm rol oynamışdır. İranla Ermənistan arasındakı ticarət dövriyyəsinə nəzər yetirdikdə görürük ki, Ermənistanın İrana ixracatı sabit qalsa da, İranın Ermənistana investisiyalarında artım müşahidə olunmuşdur. Son vaxtlar İranın Qərblə münasibətlərində müşahidə edilən gərginlik prizmasında regionda cərəyan edən proseslərə nəzər yetirəndə Azərbaycanın öz ərazilərini birmənalı

12 Nikolay Hovhannisyan, "Hayasdane Anderkafkasyan-Mercavor Arevelyan Aflharhakagakagan Darazaflercani Gorzon",*The Countries and Peoples of The Near and Middle East XVIII,* Yerevan, 1999, p. 16-39.

şəkildə xarici hərbi qüvvələrin İrana mümkün hərbi müdaxilə üçün istifadəsinə icazə verməyəcəyi və Türkiyənin Qərblə İran arasındakı danışıqlarda vasitəçilik edərək bu ölkənin sülhməramlı məqsədlərlə nüvə enerjisindən istifadəsini müdafiə etməsi, hətta NATO-nun yeni strateji konsepsiya-

Ermənistan isə öz növbəsində komplementar (tamamlayıcı) xarici siyasət həyata keçirdiyini iddia etsə də, açıq şəkildə Rusiyanın Qafqazdakı avanpostu statusunu almışdır ki, bu da suveren dövlət üçün heç də xoşagələn bir obraz deyildir. Bəzi erməni ekspertləri tərəfindən Ermənistan-Rusiya münasibətləri tərəfdaş mövqeyindən vassal mövqeyinə enmə kimi xarakterizə edilir.

sının qəbulu zamanı Qərbin İranı təhdid ünsürü olaraq göstərməsinə açıq diplomatik mübarizə ilə mane olması zəminində Ermənistan ilə İranın münasibətlərinin perspektivsizliyi aydın görünür. Türkiyə bu ciddi addımları atarkən Qərbin əks-reaksiyası ilə üzləşmişdir.[13] Bunun qarşılığında İranın vitse-prezidenti Həmid Bəqaini 2010-cu ilin avqust ayında verdiyi bəyanatında[14] 1915-ci il hadisələrini "soyqırım" kimi qiymətləndirmişdir ki, bu da, heç şübhəsiz, rəsmi Ankaranın regionda sülhün bərqərar olması istiqamətindəki səyləri ilə təzad təşkil etmişdir. İran 90-cı illərdən etibarən Türkiyəni regionda rəqib, Azərbaycanı təhdid kimi qəbul etsə də, bu gün ən çox bu ölkələrə möhtacdır. Ermənistan isə öz növbəsində komplementar (tamamlayıcı) xarici siyasət həyata keçirdiyini iddia etsə də, açıq şəkildə Rusiyanın Qafqazdakı avanpostu statusunu almışdır ki, bu da suveren dövlət üçün heç də xoşagələn bir obraz deyildir. Bəzi erməni ekspertləri tərəfindən Ermənistan-Rusiya münasibətləri tərəfdaş mövqeyindən vassal mövqeyinə enmə kimi xarakterizə edilir.[15]

Bu gün İran ilə Ermənistan arasındakı siyasi münasibətlərdə yeni tendensiya meydana çıxmışdır. İranın rəsmi şəxsləri və keçmiş dövlət məmurları İran-Ermənistan münasibətlərinin inkişafını dəstəkləmək məqsədilə tez-tez bəyanatlarla çıxış edirlər. Bu bəyanatlarda xüsusilə regionun silahlandırılması və bu yolla da Azərbaycanla Ermənistan arasındakı münaqişənin yeni müharibə ilə nəticələnə biləcəyi qorxusu ifadə edilir. "Üçüncü tərəf"in səsləndirdiyi

13 Tomas Fridman "Nyu-York Tayms" qəzetindəki köşə yazısında bu münasibəti sərt bir dillə tənqid edərək "göründüyündən daha çirkin" ifadəsindən istifadə etmişdir. Liberal, demokratik Türkiyənin bu münasibətlərdə yer alması Qərb tərəfindən xoş qarşılanmamışdır. Bax: Thomas Friedman, As Ugly as It Gets, New York Times, 26 may 2010 http://www.nytimes.com/2010/05/26/opinion/26friedman.html?hp=&pagewanted=print#

14 Iran-Armenia relations and the 'genocide', http://www.hurriyetdailynews.com/n.php?n=iran-armenia-relations-and-the-8216genocide8217-2010-08-29

15 Minassian, Qaidz, 2008. Ermənistan - Rusiyanın Qafqazdakı avanpostu,? Russie.Nei.Visions, No.27, 15 fevral, 2006, http://www.ifri.org/files/Russie/ifri_RNV_minassian_Armenie_Russie_ANG_fevr2008.pdf., p.13

bu bəyanatlarda son illər Azərbaycanın hərbi sənayesini inkişaf etdirməsinə qarşı ittihamlar da əksini tapmışdır.[16]

Bu məqamda İranın Ermənistanla əlaqələrini inkişaf etdirməsinin iqtisadi dayaqları maraq doğurur. Lakin siyasi münasibətləri izah etmək üçün iqtisadi səmərəlilik payını arqumentləşdimək mümkün olmur. Belə ki, İranın Ermənistana ixracı cənub qonşumuzun ümumi daxili məhsulunda (ÜDM) cəmi 0,05 %-dən də az paya malikdir. Deməli, İran iqtisadiyyatı üçün Ermənistan bazarının əhəmiyyəti bir faizin yüzdə beşi qədərdir, yəni hətta statistik əhəmiyyət daşımır. Bu ikitərəfli iqtisadi əlaqələr Ermənistan üçün isə əksinə həyati əhəmiyyət kəsb edir. Heç şübhəsiz, daxili bazarının miqyasına görə dünyanın 30-cu, xarici bazarının miqyasına görə isə 10-cu ən kiçik iqtisadiyyatına malik Ermənistanda İranın investisiya maraqlarının nə dərəcədə səmərəli olması sual doğurur.

Beləliklə, bütün bunları nəzərə aldıqda İran-Ermənistan əlaqələrinin inkişaf tempinə və təktərəfli mənfəət münasibətlərinə keçidini 1991-2001, 2001-2008 və 2008-ci ildən sonra olmaqla 3 mərhələdə qiymətləndirmək mümkündür.

Bu qısa qiymətləndirmədə İran-Ermənistan münasibətləri geosiyasi və iqtisadi prizmalardan yanaşılaraq "Kim qazanan, kim uduzan tərəfdir" sualı və eyni zamanda Ermənistan xarici siyasətində "komplementarizmin" ("tamamlayıcılığın") uğursuzluğu, iki ölkə arasındakı ticarət əlaqələrinin səmərəsizliyi ətrafında aparılacaq.

16 Former Iranian Ambassador to Armenia: Azerbaijan appeared in isolation, Panarmenian, 09 September 2011, http://www.panorama.am/en/politics/2011/02/09/ambassador-iran/

# 1. İran-Ermənistan siyasi münasibətləri

## 1.1. İran-Ermənistan siyasi münasibətləri: geosiyasi reallıq və doktrinal prinsiplərin tərs mütənasibliyi

İran ilə Ermənistan arasında əlaqələrin inkişaf dinamikasının təhlili bu münasibətlərin strateji maraqlara əsaslanmadan regionda cərəyan edən hadisələrə reaksiya zəminində formalaşdığını deməyə əsas verir. Belə ki, Sovet İttifaqının süqutundan sonra yaranmış yeni geosiyasi reallıq özlüyündə İran İslam Respublikası üçün təhlükəsizliyinin təmin olunması və təcrid vəziyyətindən çıxmasına qısa və uzunmüddətli strateji fürsətlər yaratmışdı. Belə ki, Sovet İttifaqının mövcudluğu dövründə Cənubi Qafqaz regionuna istiqamətlənmiş siyasətini Moskva üzərindən quran rəsmi Tehranın kommunizmin, rəsmi Moskvanın da islam rejiminin ixracını təhlükəsizliklərinə təhdid olaraq qiymətləndirmələri tərəflər arasında münasibətlərin "həssas təhlükəsizlik" mühitində inkişaf etməsinə şərait yaratmışdır.

Keçən əsrin 90-cı illərinin əvvəllərindən etibarən dəyişən postkommunist reallıqları zəminində İranın praqmatik siyasət həyata keçirməsi üçün yeni fürsətlər yaransa da, bu fürsətlərin "İran modeli", yəni siyasi islamın Orta Asiya-Qafqaz regionunda ixracı Qərb tərəfindən təhlükə ünsürü kimi qiymətləndirilmişdir. Strateji baxımdan İran üçün 80-ci illərdə İraqla müharibənin hər iki tərəfə 160 mlrd.[17] ABŞ dolları həcmində zərər vurması iqtisadi vəziyyətini normallaşdırmaq üçün müstəqilliklərini yenicə bərpa etmiş Cənubi Qafqaz ölkələri ilə ticarət əlaqələrinin inkişafını zəruri etmişdir. Təhlükəsizlik baxımından isə mürəkkəb və dəyişkən xarici mühitlə qarşılaşan İran üçün regiona üçüncü qüvvələrin müdaxiləsinin qarşısını almağa çalışmaqla yanaşı, Cənubi Qafqazda yaranmış qüvvələr boşluğunu dolduraraq təcriddən qurtulmağı prioritet etmişdir. Eyni zamanda, İran daxilindəki bəzi siyasi qüvvələr yeni geosiyasi mühiti "şovinist" kimi qiymətləndirərək, Cənubi Qafqazı "Rusiya tərəfindən işğal edilərək İrandan qoparılmış region" olaraq görmüş və bu bölgənin yenidən İranın nüfuz dairəsinə düşəcəyi düşüncəsində olmuşlar.[18] Möhtəşəm Fars imperatorluğu xəyallarını xatırladan "Böyük İran" ("İrane bozorg") ifadəsi bu dövrdə mətbuatda yenidən ən çox işlədilən terminlərdən birinə çevrilmişdir.[19]

İran-Ermənistan münasibətlərinin 90-cı illərin prizmasından yanaşaraq tədqiq edilməsi hər iki ölkənin xarici siyasətindəki "doktrina" və "prinsiplər"in üçüncü qüvvələrin müdaxilələri ilə istiqamətləndirildiyi fikrini doğurur.

17 CIA Analysis, Iran's economy: a survey of its decline, (1991), http://www.foia.cia.gov/, p iii.

18 Abdollah Ramezanzadeh, göstərilən əsəri, s.68

19 Fred Halliday, "Condemned to React, Unable to Influence: Iran and Transcaucasia", John F. R. Wright, Suzanne Goldenberg, Richard Schofield (der.), Transcasucasian Boundaries, New York, St. Martin's Press, 1996, pp. 71-88, p. 73.

İki ölkə arasındakı əlaqələri 3 dövr üzrə qiymətləndirərkən, bu münasibətlərin inkişaf dinamikası və reqressiyasının Qərb və Rusiyanın müdaxilələri ilə birbaşa bağlı olduğunu görürük.

Bu baxımdan İran-Ermənistan münasibətlərinin *birinci mərhələsi 1991-2001-ci illəri* əhatə edir. Bu dövrdə iki ölkə arasındakı münasibətlərə təsir edən determinantlara xüsusilə Dağlıq Qarabağ münaqişəsini, İranın Rusiya və Qərblə əlaqələrini aid etmək olar. Həmçinin Qərbin regionun enerji resurslarının ixracına marağı və Cənubi Qafqaz ölkələri ilə münasibətlərini inkişaf etdirmək istəyi İran tərəfindən milli təhlükəsizliyinə potensial təhlükə kimi qiymətləndirilmişdir. Dağlıq Qarabağı işğal etməklə başlayan irredentist siyasətinə baxmayaraq Ermənistan Qərbdən lazımi maliyyə yardımları almış, hətta ABŞ-dakı erməni diasporunun fəallığı sayəsində "Azadlığa Dəstək Aktı" çərçivəsində Azərbaycana göstərilməsi nəzərdə tutulan maliyyə yardımlarının qarşısını almağa nail olmuşdur. Bu kontekstdə İran-Ermənistan münasibətlərinin formalaşması və dinamik inkişafı rəsmi Tehranın milli təhlükəsizlik və xarici siyasətindəki ideoloji prinsiplərin bir-biri ilə ziddiyyət, hətta bu iki fərqli qütbdə olan yanaşmanın öz daxilində uyğunsuzluq təşkil etdiyi fikrini doğurmuşdur. Belə ki, İranın xarici siyasətində ideoloji prinsiplər əvəzinə milli maraqları üstün tutduğunu iddia edənlərin qənaətinə görə, Ermənistanın daha çox Qərbin dəstəyini alması, işğalçılıq siyasətini yürütməsi rəsmi Tehranın milli maraqlarını təmin etmədiyini deməyə əsas verir. 90-cı illərin geosiyasi reallığında İranın dini ideologiyaya əsaslanan xarici siyasət yeritdiyini iddia edənlərin fikrincə isə Cənubi Qafqaz regionunun tək müsəlman ölkəsi olan Azərbaycanın ərazilərinin işğalı, müsəlmanların mədəni irsinin məhvi və onlara qarşı törədilən zorakılıqlar islam dini və onun İran xarici siyasətində yekdil rolu ilə ziddiyyət təşkil etmişdir.

Yuxarıda qeyd olunanlar İran-Ermənistan münasibətlərinin dinamik inkişafında tərəflərin əsaslandıqları arqumentlərin daha çox aşağıdakı geosiyasi maraqlara dayandığını deməyə imkan verir:

1. Türkiyə ilə Azərbaycan arasında inkişaf edən əlaqələri balanslaşdırmaq cəhdləri;
2. Cənubi Qafqaz regionunda iqtisadi maraqları zəminində Qərbin fəallığını artırmasına qarşı mübarizə;
3. Qlobal mərhələdə rəsmi Tehranın ABŞ-dakı yəhudi lobbisinə qarşı erməni lobbisindən yararlanmaq istəyi;
4. Ermənistanın Türkiyə və Azərbaycana qarşı siyasətindən istifadə etməklə rəsmi Tehranın regionda siyasi gücünü artırmaq imkanı əldə etmək arzusu;
5. Dağlıq Qarabağ münaqişəsinin davam etməsi və həllini tapmaması Türkiyə və Azərbaycanın daimi olaraq bu məsələ ilə məşğul olmasına və regionda daha güclü rol əldə etmələrinin qarşısının alınmasına hədəflənmişdir.

Bu dövrdə Ermənistan üçün İran ilə iqtisadi əlaqələr mühüm əhəmiyyət kəsb edirdi. Dağlıq Qarabağ münaqişəsində rəsmi

Tehran Ermənistanın istədiyi istiqamətdə siyasi "iradə" nümayiş etdirmişdi. İki ölkə arasındakı diplomatik münasibətlər 1991-ci il dekabrın 25-də İran tərəfindən Ermənistanın müstəqilliyinin tanınması ilə başlamışdır. Dağlıq Qarabağ müharibəsi ərzində İran Ermənistana istədiyi formada siyasi dəstək nümayiş etdirməklə bu ölkənin Rusiyadan sonra ikinci böyük hamisi rolunu öz üzərinə götürmüşdür.

Ermənistan tərəfindən atılan addımlar münasibətlərin ilkin mərhələsindəki inkişaf üçün stimulverici amil olmuşdur. Belə ki, 9 fevral 1992-ci il tarixində Ermənistanın xarici işlər naziri Rafi Hovanisyanın rəhbərlik etdiyi nümayəndə heyəti Tehrana səfər etmiş, 2 həftə sonra isə İranın xarici işlər naziri Vilayətinin rəhbərlik etdiyi nümayəndə heyəti Yerevanda olmuş, rəsmi görüşlər keçirmiş, bununla da diplomatik münasibətlər sahəsində ilkin addımlar atılmışdır. 1992-ci ilin noyabr ayında Ermənistan Prezidenti Levon Ter-Petrosyanın imzaladığı fərmanla Yerevanda Ermənistan-İran Əlaqələrini İnkişafetdirmə Komissiyası yaradılmışdır. Bu qurumun işinin effektivliyini artırmaq məqsədilə İran ermənilərindən olan Levon Aharonyanın rəhbərliyi ilə qurulan İran-Ermənistan Ticarət Birliyinin nəzdində iranlı və erməni iş adamlarının şurası formalaşdırılmışdır. Hər iki qurumun əsas məqsədi Türkiyənin regionda aktivliyinin artmasının və Azərbaycanın iqtisadi potensialının güclənməsinin qarşısını almaq olmuşdur. [20] Bu siyasi məqsədi daha da qüvvətləndirmək üçün, ilk növbədə, Araz çayı üzərində iki ölkə arasında ticarətin əsas formalaşdırıcı amili qismində çıxış edən körpü tikilmişdir. Bu körpü erməniləri Dağlıq Qarabağ müharibəsi ərzində iqtisadi təcriddən qurtarmışdır. Daha sonra iki ölkə arasında əlaqələrin in-



20 Vahan Bayburtyan, "Hay-İranagan Haraberutyunnere Hayasdani Angahutyan Zerk Berumis Hedo", *The Countries and Peoples of The Near and Middle East XVII,* Erivan 1998, p.11

kişafının göstəricisi olaraq Mehri-Qacaran tuneli və Araz çayı üzərində körpünün tikintisi layihələndirilmiş və Avstraliya ermənilərinin maliyyə yardımı ilə 1996-ci ildə onların açılışı olmuşdur.[21] İkitərəfli əlaqələrin inkişaf tempinin əsas göstəricisi 1994-1998-ci illərdə Ermənistanın ticarət əlaqələrində İranın ilk yeri tutmasında özünü əks etdirmişdir. ABŞ-ın Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisinə dəstək verməsini[22] narahatlıqla qarşılayan İran öz fobiyaları ucbatından regional layihələrdən kənarda qalmışdır. Bütün bunlara baxmayaraq, Azərbaycan "Şahdəniz" layihəsində İran şirkətlərinə pay verməklə ikitərəfli münasibətlərin inkişafı və rəsmi Tehranın Qərblə münasibətlərinin normallaşmasına köməklik göstərməyə çalışmışdır. Bu dövrə xas olan əsas cəhət İran-Ermənistan əlaqələrinin rəsmi Moskvanın İrana münasibəti zəminində inkişafı olmuşdur.

İran-Ermənistan münasibətlərində *ikinci mərhələ 2001-2008-ci illəri* əhatə edir. Bu mərhələdə ABŞ-ın terrorizmə qarşı beynəlxalq səviyyədə mübarizəsi zəminində Cənubi Qafqaz regionuna Qərbin marağı artmış, bu da öz növbəsində region dövlətlərinin Qərbə inteqrasiyasında stimulverici amil rolunu oynamışdır. Bu dövrdə İran siyasətinin əsas ünsürlərindən biri regionda cərəyan edən proseslərə, o cümlədən regional təhlükəsizlik məsələlərinə kənardan qarışma və xarici müdaxilə ilə bağlı olmuşdur. 2001-ci ildə İranın Xəzərin Azərbaycan sektoruna müdaxilə etməsi ikitərəfli münasibətlərdə gərginliklə müşahidə olunmuşdur. Ermənistan bu dövrdə İran ilə münasibətlərini Rusiya-ABŞ münasibətlərinin inkişaf tempinə uyğun şəkildə müəyyənləşdirmişdir. Rusiya ilə ABŞ arasındakı münasibətlərin terrorizmə qarşı mübarizə istiqamətində inkişafı Ermənistanın İran ilə münasibətlərinə

> İranın Yerevandakı səfiri Məhəmməd Koyelini Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyana demişdi: "Siz düşünmürsünüzmü ki, öz siyasətinizi təsvir etmək üçün "komplementarizm" əvəzinə "çoxtərəfli əlaqələr" ifadəsini işlətmək daha düzgün olar?"

mənfi təsir göstərmişdir. Belə ki, 2002-ci ildə ABŞ Dövlət Departamentinin İrana kimyəvi avadanlıq satmaqda təqsirləndirilən Ermənistan şirkətinə qarşı sanksiyalar tətbiq etməsi[23] və Ermənistan hökumətinin bunun qarşısında geriyə addım atması xüsusilə diqqəti cəlb edir.[24] Göründüyü kimi, Ermənistan ona edilən təzyiqlər nəticəsində xarici siyasətdə bir anda geri çəkilərək

21 Yenə orada, s.12

22 Svante E. Cornell, "Iran and the Caucasus", *Middle East Policy* (Jan 1998, v5, n4), p. 59

23 US imposes sanctions on Armenian entities, 5/9/2002,http://www.nti.org/db/nisprofs/armenia/excondev.htm

24 Armenia: Westward Foreign-Policy Shift Brings Unease in Iran http://www.eurasianet.org/departments/insight/articles/eav100502.shtml

"səmərəli" əlaqələrini təhlükə altında qoyur. Məhz bu hadisədən sonra İranın Yerevandakı səfiri Məhəmməd Koyelini Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyana demişdi: "Siz düşünmürsünüzmü ki, öz siyasətinizi təsvir etmək üçün "komplementarizm" əvəzinə "çoxtərəfli əlaqələr" ifadəsini işlətmək daha düzgün olar?"[25] Göründüyü kimi, 2001-ci ildən etibarən rəsmi Tehran "strateji" münasibətlərində bu strategiyanın *boru xəttinin regionun güc tarazlığını pozduğunu, Ermənistanın Cənubi Qafqazda bu gücü tarazlaşdırmaq üçün alternativ yollar axtarışında olduğunu bildirmiş və İran-Ermənistan təbii qaz boru xəttini alternativ layihə olaraq qiymətləndirəcəklərini ifadə etmişdir.*[26] Göründüyü kimi, İran-Ermənistan əlaqələrinin sıxlaşması və 2004-ci ildən etibarən daha sürətlə inkişaf etməsinin səbəbi Azərbaycanın regi-



təyinedici tərəfi olaraq Ermənistanın yox, Rusiyanın olduğunun fərqinə varmışdır.

Lakin 2004-cü ildən Bakı-Tbilisi-Ceyhan layihəsinin "əfsanədən reallığa" çevrilməsi İran-Ermənistan əlaqələrinin inkişafını stimullaşdırmışdır. 26 may 2005-ci il tarixində Ermənistan parlamentində mətbuat nümayəndələrinə verdiyi müsahibəsində Baş nazir Andranik Marqaryan Bakı-Tbilisi-Ceyhan onda iqtisadi qüdrətinin artmasına qarşı "birgə mübarizə" aparmaq məqsədinə əsaslanmışdır.

Tərəflər arasında "birgə mübarizə" istiqamətində addımlar atılmasına baxmayaraq, Rusiya İranın Ermənistan üzərində təsir gücünü neytrallaşdırmaq imkanlarını əlində saxlamışdır. Moskvanın Ermənistana təsir gücü özünü iki formada göstərmişdir.

25 Yenə orada

26 Nana PETROSYAN, 'Bakü-Tiflis-Ceyhan Bölgede Güç Dengesini Bozuyor', http://www.azg.am/&num=2005052604



1. İran-Ermənistan münasibətlərinin müstəqil xarici siyasətə söykənmədiyinin ən bariz nümunəsi Rusiyanın “Qazprom” şirkətinin iştirakı və nəzarəti ilə iki ölkə arasında enerji sahəsində inkişaf etdirilən əməkdaşlıqdır.[27] 2004-cü ildə İranla Ermənistan arasında enerji sahəsində imzalanan razılaşmaya görə, layihənin ümumi dəyəri 120 milyon dollar müəyyənləşdirilmişdi. Ancaq boru xətti tamamlandığı zaman layihənin maliyyə dəyəri 220 milyon dollara çatmışdır. Bununla yanaşı, 2007-ci ildən başlayaraq 20 illik müddət ərzində İran Ermənistana 36 milyard kubmetr təbii qaz ixrac etməyi nəzərdə tuturdu. 141 kilometrlik boru xəttinin 41 kilometri Ermənistan sərhədləri daxilində tikiləcək və bu layihənin maliyyələşdirilməsi üçün İran Ermənistana 30 milyon dollar həcmində kredit ayıracaqdı. Layihənin gündəmə gəldiyi tarixlərdə Moskvadan müsbət cavab ala bilməyən Ermənistanın o vaxtkı prezidenti Robert Köçəryan tikiləcək borunun diametrini 1400 mm-dən 700 mm-ə endirərək, onun Ermənistan üçün iqtisadi səmərəliliyindən imtina etmişdir. Bununla da Ermənistan İranın təbii qazını üçüncü ölkə bazarlarına sata bilmə imkanından məhrum olmuş, özünə çatan təbii qazı elektrik istehsalında qiymətləndirməklə kifayətlənmişdir.

2. Ermənistanın Rusiyadan iqtisadi asılılığının artması, başqa ifadə ilə desək, Ermənistanın “kalininqradlaşdırılması”[28] rəsmi Moskvanın İran-Ermənistan münasibətlərindəki inkişaf tempini istədiyi kimi idarə etməsinə imkan yaratmışdır. Xüsusilə, 2003-cü ildə Rusiyanın borclarını ödəməsini tələb etməsi nəticəsində iqtisadiyyatının strateji əhəmiyyətli obyektlərini borc müqabilində bu ölkəyə verməsi, ya-

27 Kaweh Sadegh-Zadeh, Iran’s Strategy in the South Caucasus, Caucasian Review of International Affairs Vol. 2 (1) – WINTER 2008 © CRIA 2008, s. 37.

28 Kalininqrad Rusiyanın ərazisi sayılsa da, onunla heç bir coğrafi bağlılığı yoxdur. Burada “kalininqradlaşdırılma” coğrafi bağlılıq deyil, “özününküləşdirmə” mənasında işlədilir.

xud ucuz qiymətə satması nəticəsində Ermənistan iqtisadiyyatının əsas sahələri Rusiyanın nəzarətinə keçmişdir.[29] Rusiya tərəfindən böyük vədlərlə alınmış obyektlərin mütləq əksəriyyəti bu vaxtadək heç işə də salınmamışdır. Bu, xüsusilə istehsal sferasına aid olan mobil rabitə operatorları, qaz və işıqpaylayıcı şəbəkələr və banklardır. Qeyd edək ki, Rusiyanın 93 milyon ABŞ dolları həcmində borcu müqabilində strateji obyektlərə sahib olmasının əksinə olaraq 1992-1995-ci illərdə ABŞ-ın Ermənistana təmənnasız yardımı 1.6 mlrd. ABŞ dolları olmuşdur. Eyni zamanda, rəsmi Vaşinqtonun yardımlarında azalma müşahidə olunmamış və bunun qarşılığında iqtisadi səmərəlilik əldə etmə prioritet hesab edilməmişdir[30]



Bununla da rəsmi Moskva Ermənistanın İran və digər dövlətlərlə "müstəqil", qarşılıqlı olduğunu iddia etdiyi siyasətinin əslində Rusiyanın nəzarətində olduğunu göstərmişdir. Eyni zamanda, "Metzamor" Atom Elektrik Stansiyasının (AES) inkişaf etdirilməsi və bununla əlaqədar Rusiya ilə ikinci müqavilənin imzalanmasıyla 2017-ci ildə yeni AES-in istifadəsi planlaşdırılsa da, bu, rəsmi Yerevanın regionda İranın hələ də əldə edə bilmədiyi nüvə enerjisindən istifadə etməyə hesablanan planlarının bir başqa uğursuz həmləsi olmuşdur. Erməni ekspertləri istehzalı şəkildə qeyd edirlər ki, Mars planetinin idarə olunması "Metzamor"un idarəsindən asandır.[31]Bu göstəricilər və İranla Ermənistan arasındakı ticarət həcmi deməyə imkan verir ki, İranın maliyyə yardımları və investisiyalarının

29 Danielyan, Emily. "Russia Tightens Grip on Armenia with Debt Agreements." Headlines I Eurasianet.org. 6 May 2003. Web. 09 Nov. 2010. http://www.eurasianet.org/departments/business/articles/eav050703.shtml.

30 Mainville Michael. "Second-Largest Recipients of U.S. Aid, Armenians Fight To Get Ahead - August 9, 2005". The New York Sun. 9 Aug. 2005

31 Alkhazashvili, M. "TBILISI: IAEA Chief Visits Armenian Nuclear Power Plant Metsamor". Armenian News for Diaspora. 3 Aug. 2005. Web. 09 Nov. 2010. http://www.armeniandiaspora.com/showthread.php?33864-TBILISIIAEA-chief-visits-Armenian-nuclear-power-plant-Metsamor.

qarşılığında Rusiya daha çox qazanan tərəf olmuşdur.

İran-Ermənistan münasibətlərində *üçüncü mərhələ 2008-ci ildən sonrakı dövrü* əhatə edir. 2008-ci ilin avqust ayında Rusiya-Gürcüstan müharibəsinin baş verməsi Ermənistan üçün İranın əhəmiyyətini və ona olan iqtisadi marağı daha da artırmışdır.

Xüsusilə, Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımaqla və sülhməramlı əməliyyatlarını dayandırmaqla Rusiya bu ərazilərdə öz hərbi gücünün vektorunu dəyişdirmiş, nəticədə rəsmi Tbilisinin Moskva ilə münasibətləri mürəkkəb xarakter almışdır. Bu, ilk növbədə, Ermənistanın tək çıxış yolu olan Gürcüstan "qapısı"nın bağlanmasına səbəb olmuşdur. Məhz Türkiyə-Ermənistan normallaşma prosesinin başlanması rəsmi Yerevanın "geosiyasi kəlbətin" vəziyyətindən qurtulmağa və dünya iqtisadi böhranının təsirini ölkəyə qoyulacaq xarici sərmayələrlə aradan qaldırmağa çalışma planı ilə birbaşa əlaqədar olmuşdur. Qeyd edək ki, Ermənistan iqtisadiyyatının 2000-ci ildən etibarən səmərəliliyini itirməsi ölkədə kölgə iqtisadiyyatının yaranması və 44 oliqarx ailənin əlində cəmlənməsi ilə nəticələnmişdir.[32] Qlobal iqtisadi böhranın nəticələrindən biri Ermənistan əhalisinin yoxsulluq dərəcəsinin artması olmuşdur. Ermənistanın təqdim etdiyi rəsmi rəqəmlər bunun ölkə əhalisinin 1/4-i olduğunu[33] göstərsə də, Dünya Bankının hesablamalarına görə, bu, ölkə əhalisinin 50%-indən çoxunu əhatə edir.[34] İqtisadi siyasətdə uğursuzluğun nəticəsi olaraq Ermənistanın xarici ticarət kəsiri ÜDM-in 20 %-ni təşkil etmişdir.

İran-Ermənistan münasibətlərində gözlədiyi nəticələrə nail ola bilməyən və iqtisadi dəstəklə Yerevan üzərində siyasi güc əldə etmək planları puça çıxan

> **Erməni ekspertləri istehzalı şəkildə qeyd edirlər ki, Mars planetinin idarə olunması "Metzamor"un idarəsindən asandır.**

İran 2009-cu ildən etibarən rəsmi Yerevanla münasibətlərində "keyfiyyətcə" yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə siyasi motivləri, geosiyasi mənfəət perspektivi aydın olmayan bəyanatlar [35] və çıxışlarla İran rəsmilərinin Yerevana siyasi dəstək nümayiş etdirmək cəhdləri ön planda görünür.

İndiki mərhələdə iki ölkə arasındakı münasibətlərdə qarşılıqlı iqtisadi

32 Khachatrian, Haroutiun. "Competitive Edge: The pitfalls of monopolies, and the challenges of a business influenced parliament". ArmeniaNow.com. 04 Jan. 2008. Web. 09 Nov. 2010. http://www.armenianow.com/special_issues/agbumag/8033/competitive_edge_the_pitfalls_of_m.

33 Griffin, Kieth, Thomas Kelley, Terry McKinley, Bargat Asatryan, Levon Barkhudaryan, and Armen Yeghriazarian. Growth, Poverty, and Inequality in Armenia. Rep. United Nations Development Programme, 2002. Print.

34 "Armenia | Data". Data | the World Bank. Web. 29 Nov. 2010. <http://data.worldbank.org/country/armenia>.

35 Bu bəyanatlar birmənalı olaraq Azərbaycanın daxili işlərinə qarışmağın təzahürüdür. Bax: Former Iranian Ambassador to Armenia: Azerbaijan appeared in isolation http://www.panorama.am/en/politics /2011/02/09/ ambassador-iran/; Azerbaijan's accumulation of weapons unpleasant, Iranian ambassador says http://news.am/eng/news/47316.html

səmərənin və siyasi qazancın olmaması, bunun əsasən rəsmi Yerevanın mənfəətlərinə xidmət etməsi qarşılığında rəsmi Tehranın nə siyasi, nə də ki iqtisadi qazanc əldə edə bilmədiyi aydın olur. Lakin, bununla belə, getdikcə böyük güclərin regiondakı maraqlarından irəli gələn münaqişəli məsələlər bu əməkdaşlığı qüvvətləndirmişdir. Qarabağ problemi və cənubda azərbaycanlılar arasında milli oyanış hərəkatının vüsət alması İranı Ermənistanla strateji ortağa çevirmişdir. Beləliklə, İran Cənubi Qafqazda atdığı iqtisadi-siyasi addımlarla Ermənistanı gücləndirməklə Azərbaycanla münasibətləri bu siyasətə qurban verir.

Eyni zamanda, bu "yeni dövrdə" tarixi yaxınlıq haqqında çıxışlarında Ermənistan və İran rəsmiləri farsların və ermənilərin din fərqliliyini ört-basdır etməyə çalışırlar. 2011-ci ilin fevral ayında erməni patriarxı Sibve Sarkisyanın İranda islam inqilabının 32-ci ildönümünü təbrik etməsi bu baxımdan diqqəti cəlb edir.[36] Dinin hər bir millətin formalaşmasında mühüm amil olduğu məlumdur. Millətlər sadəcə irqi xüsusiyyətləri ilə deyil, həm də ən əsası dini mənsubiyyətlərinin ortaqlığı üzərindən bir-birinə qarşı yaxınlıq duyurlar. Bu mənada min ildir İranda dövlət quran müsəlman türklərin hakimiyyətlərində türklərlə farsları birləşdirən əsas amil islam dinidir. Bütün bu məqamları nəzərə aldıqda yeni birtərəfli mənfəətlərə xidmət edən münasibətləri aydınlaşdırmaq üçün tərəflərin bir-birinə geosiyasi əhəmiyyət verməsi məsələsinə nəzər yetirmək ehtiyacı yaranır.

## 1.2. İranın Ermənistan üçün həyati əhəmiyyəti

Bölgədə yürütdüyü qeyri-konstruktiv siyasətlə bağlı üzləşdiyi iqtisadi çətinliklər zəminində rəsmi Yerevanın da xarici siyasətində doktrinal prinsiplərin boşluğu, nəzəri əsasların praktiki tətbiqində ziddiyyətlərin olduğu aydın şəkildə müşahidə edilir.

Ermənistan xarici siyasətdə prinsip və doktrinal təlqinlərin həyata keçirilməsi baxımından "zəif dövlət" təsiri[37] bağışlayır. Müstəqillik əldə etdikdən sonra Ermənistanın xarici siyasətində bir tərəfdən Qərb-Rusiya maraqları güdülməyə çalışılmış, digər tərəfdən İran kimi region ölkələri ilə münasibətlər tənzimlənilmişdir. Lakin 2003-cü ildə dövlət obyektlərini satmaqla getdikcə Rusiyanın "orbiti"nə çevrilən rəsmi Yerevanın "komplementarizm" adlı siyasətinin mövcud olmadığı anlaşılmışdır. Eyni zamanda, Ermənistanın coğrafi və siyasi istiqamətdən "blokadaya alındığı hissi" yaradan geosiyasi xüsusiyyətləri bir tərəfdən onun qorxularını artırsa da, digər tərəfdən özünü müdafiə edə bilməsi üçün onu lazım olan vasitələrlə təmin edə bilmir. Qonşularından qorxan və qorxuları sürətlə "fobiya" səviyyəsinə çatan rəsmi Yerevan özünə qarşı düşmənçilik bəsləməyən ölkələri də rəqib kimi görməkdə, bu da

36 Tehran Armenian patriarch felicitates supreme leader and president, 8/2/2011 Islamic Republic News Agency/IRNA NewsCode: 30232861

37 Richard Giragosian, Toward a new concept of Armenian National Security, Prepared for third Annual AIPRG International Conference 15-16 January 2005 The World Bank Washington DC, p.2-3

sürətlə Ermənistan əleyhinə olan bir amilə çevrilməkdədir. Belə ki, Ermənistan bu vəziyyətdə, ilk növbədə, Rusiya və erməni diasporu olmaq üzrə digər aktorların təsiri altına daha açıq şəkildə düşməkdədir. Coğrafi mövqeyini dəyişdirməsi mümkün olmayan Ermənistanın bu mühitdə müdafiə və xarici siyasət qərarlarının böyük bir qisminin seçimlərindən çox özünü bu qərarları almağa zəruri hiss etməsindən və kənardan istiqamətləndirilməsindən qaynaqlandığını söyləmək mümkündür.

İranın Ermənistan üçün əhəmiyyəti onun 1992-ci ildən etibarən ikitərəfli münasibətlərin inkişafı sahəsində atdığı addımlar və qəbul etdiyi strateji sənədlərdə öz əksini tapmışdır. 2007-ci ilin fevral ayından qüvvədə olan Ermənistan Milli Təhlükəsizlik Konsepsiyasında İran ilə münasibətlərin rasionallığı "ortaq sərhədlər, tarixi yaxınlıq, mədəni əlaqələr və iqtisadi maraqlar" çərçivəsində inkişaf etdiyi bildirilir və bunlar strateji məqsəd olaraq xarakterizə olunur.[38] Bu strateji sənəddə açıq şəkildə ifadə olunur ki, Ermənistanın təcriddən qurtulması və Yaxın Şərq regionuna çıxış əldə etməsində İranın əvəzsiz rolu vardır.

Bütün bunları nəzərə aldıqda, Ermənistan prezidentinin İranın rəsmi Yerevan üçün əhəmiyyətini açıqlayan aşağıdakı fikri bir daha münasibətlərə aydınlıq gətirir: "İran Ermənistan üçün çox vacib ölkədir, ona görə yox ki, biz bir çox əsrlərdir qonşu olmuşuq və indi də qonşuyuq. Bunun başqa səbəbləri də var. Faktiki olaraq, İran bizim xarici aləmlə ünsiyyət qurduğumuz iki ölkədən biridir. İranla problemlərə malik olmaq Ermənistanın nəfəs aldığı borunun getdikcə daralması deməkdir".[39]

Ermənistanın Milli Təhlükəsizlik Konsepsiyasında göstərilən aşağıdakı yanaşmaların reallıqda tətbiq edilmədiyini və ya uğursuzluğa düçar olduğunu demək mümkündür:

> İran Ermənistanla enerji sahəsində əməkdaşlıq etməklə bu enerji koridoruna alternativ yaratmağa səy göstərsə də, 2003-cü ildə strateji obyektlərini Rusiyaya satdığını və 2006-cı ildə enerji layihələrində "Qazprom"un böyük paya sahib olduğunu nəzərə aldıqda Ermənistanın "müstəqil" davranaraq alternativ vasitələr yaratmaq cəhdlərinin uğursuzluğu anlaşılır.

*1. İki ölkə münasibətlərinin iqtisadi səmərəliliyə dayandığı iddiası:*

İranla Ermənistanın bir-birinə yaxınlaşmasına regionda reallaşan, lakin hər iki ölkədən yan keçən layihələr də öz

38 National Security Concept of Armenia, s.19-20, http://www.natoinfo.am/eng/publications/documents/NationalSecurity_eng.pdf

39 Эхо Москвы / Передачи / Интервью / Четверг, 27.01.2011: Серж Саргсян, президент Армении http://www.echo.msk.ru/programs/beseda/744902-echo.phtml

təsirini göstərmişdir. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Ermənistan ərazisindən keçməsi iqtisadi cəhətdən əlverişli olmasına baxmayaraq, Azərbaycanla mövcud münasibətlər səbəbindən ermənilər bu layihədən kənarda qalmışdır. Bundan əlavə, Qars-Gümrü dəmir yolu xəttinin mövcudluğuna baxmayaraq, Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu xəttinin çəkilməsi Ermənistanın regionda həyata keçirilən infrastruktur layihələrində iştirak etmək və tranzit ölkə olmaq ümidlərini boşa çıxarmışdır. İran Ermənistanla enerji sahəsində əməkdaşlıq etməklə bu enerji koridoruna alternativ yaratmağa səy göstərsə də, 2003-cü ildə strateji obyektlərini Rusiyaya satdığını və 2006-cı ildə enerji layihələrində "Qazprom"un böyük paya sahib olduğunu nəzərə aldıqda Ermənistanın "müstəqil" davranaraq alternativ vasitələr yaratmaq cəhdlərinin uğursuzluğu anlaşılır. Eyni zamanda, İranın iqtisadi layihələrin köməkliyi ilə Ermənistanı "idarə etmək" arzuları puç olmuşdur.

*2. İki ölkə münasibətlərinin strateji və qarşılıqlı dəstək ifadə etdiyi iddiası*

Tehran-Yerevan yaxınlaşmasında mühüm rol oynayan digər bir amil strateji əhəmiyyət və qarşılıqlı dəstəyi təmin etməyə hesablanmış əlaqələrin ehtiyac yarandığı məqamda gözlənilən yardım və siyasi dəstək ümidlərini real olaraq doğrultmamasındadır. İranın nüvə fəaliyyətinə qarşı tətbiq edilən sanksiyalara Yerevanın "strateji müttəfiq" kimi yanaşmaması bu müttəfiqliyin bütün əsaslardan məhrum olmasına gətirib çıxara bilər. Məlumdur ki, hazırda İrana qarşı BMT Təhlükəsizlik Şurasının qərarı əsasında Qərbin (ABŞ-ın) maliyyə-iqtisadi sanksiyaları tətbiq edilir. Bu səbəbdən rəsmi Tehran yaxın qonşuları ilə münasibətlərini normallaşdırmağa səy göstərərək onları sanksiya-



lara qoşulmaqdan çəkindirməyə çalışır və onlarla əməkdaşlığı genişləndirməyə vadar olur.[40] Ermənistanın doktrinal sənədlərdə İrana qarşı sanksiyaları öz milli təhlükəsizliyinə (iqtisadi) təhdid olaraq görməsinə baxmayaraq, bu məsələdə o, İranın istəklərinə cavab vermək iqtidarında deyil. “Komplementarizmin” uğursuz, daha doğrusu, Ermənistan xarici siyasətini düzgün ifadə etməyən termin olduğunu nüvə məsələsində rəsmi Yerevanın Moskvanın addımlarını izləməsi aydın şəkildə göstərir. Belə ki, İranın nüvə proqramında ilkin olaraq Tehranın yanında yer alan Rusiyanın mövqeyi əhəmiyyət daşıyır. Nüvə problemi ilə bağlı son müzakirələrə əsasən, Rusiya İranın uranın zənginləşdirilməsi planlarına qarşıdır. Rusiya rəsmiləri 2011-ci il yanvar ayının 21-22-də İstanbulda keçirilmiş “altılıq”ın (“Beş üstəgəl bir” - bu məsələ ilə bağlı böyük dövlətlərin) görüşünün nəticəsiz başa çatmasından təəssüfləndiklərini bildirmişlər. Bunun ən bariz nümunəsi Rusiya Prezidenti D.Medvedevin Davosda keçirilən beynəlxalq forumda “İran dünyanı inandırmalıdır ki, atom enerjisini dinc məqsədlərlə inkişaf etdirir”[41] şəklində fikir bildirməsi olmuşdur.

İran erməni lobbisindən ABŞ-ın bu ölkəyə istiqamətlənmiş siyasətinin müəyyənləşdirilməsində müəyyən təsirə malik daha sərt sanksiyalar tətbiq etmək tərəfdarı olan yəhudi lobbisini müəyyən mənada tarazlaşdırma funksiyasını yerinə yetirməsini və hətta Obama iqtidarının İranla müzakirələrə üstünlük verməsinə dair siyasətində də müəyyən dərəcədə təsirli olmasını istəyir. Ermənistan bu məsələdə rəsmi olaraq İrana dəstək verməkdə aciz qalsa da, bu ölkədə yerləşən İran maliyyə qurumları vasitəsilə rəsmi Tehranın nüvə proqramının reallaşmasına köməklik göstərmişdir. İranın “Bank Mellat”ı 2003-cü ildən etibarən İranın nüvə proqramını maliyyə vəsaiti ilə təmin edir. Həmin bankın Yerevanda yerləşən şöbəsindən (Mellat Bank SB CJSC) İrana milyonlarla ABŞ dolları köçürülmüşdür.[42]

> Ermənistan bu məsələdə rəsmi olaraq İrana dəstək verməkdə aciz qalsa da, bu ölkədə yerləşən İran maliyyə qurumları vasitəsilə rəsmi Tehranın nüvə proqramının reallaşmasına köməklik göstərmişdir.

Bu iki yanaşmanın əksinə Ermənistanın İran üçün aşağıdakı məsələlərdə mühüm rol oynadığı təsdiqlənmişdir:

***1. Silah satışı***

Son vaxtlarda üzə çıxan sənədlərə əsasən demək mümkündür ki, Ermənistan tərəfindən İrana ötürülən silahlar İraq-

40 Harout Ekmanian, Armenia-Iran Relations In Light Of Recent Developments, Armenian Weekly – 24/11/2010

41 Медведев: «Иран должен убедить мир, что развивает мирный атом», РИА Новости 27.01.2011, http://1news.az/region/Russia/20110127120447791.html

42 Iran’s Dirty banking- How the Islamic Republic skirts International Financial Sanctions, p.3, http://www.redcellig.com/media/Irans_Dirty_Banking.pdf

da ABŞ əsgərlərinin ölümünə yol açmışdır. Bununla bağlı mətbuata məlum olan sənədlərdə aşağıdakı qeydlər əksini tapmışdır: "2003-cü ildə İran Ermənistandan raket və avtomat silahlar almışdır. 2007-ci ildə İraqda şiə yaraqlıları tərəfindən edilən iki hücumda bu silahlardan istifadə edilmişdir. Həmin hücumlarda 1 Amerika əsgəri həlak olmuş, 6-sı yaralanmışdır".

Erməni mənbələrində yer alan faktlar da təsdiq edir ki, keçmiş prezident Robert Köçəryan və indiki prezident Serj Sarkisyan Azərbaycanın işğal altındakı ərazilərindən təbii sərvətlərin talanıb daşınması ilə yanaşı beynəlxalq narkomafiyanın da bu ərazilərdən istifadəsinə şərait yaratmışlar. Ermənistan hakim elitasının beynəlxalq narkomafiya ilə əlaqələri var.

Yüksək rütbəli Ermənistan məmurlarının İrana silah ötürülməsi işində birbaşa iştirakı[43] ABŞ-ı xüsusilə narahat etmiş, hətta 2008-ci ildə ABŞ Ermənistana sanksiya tətbiq etmək istəmişdir. Məlum olmuşdur ki, tank əleyhinə RPQ-22 raketləri Vazovski Maşınqayırma zavodu, pulemyotlar isə Bolqarıstanın "Arsenal" şirkəti tərəfindən istehsal edilmişdir. Ermənistan tərəfindən sazişi "Zao Veber" şirkəti (onun səhmlərinin bir hissəsi dövlətə məxsusdur), İran tərəfindən isə "Abdi Asjerd" silah satışı şirkəti imzalamışdır. Amerikanın iddiasına görə, silahın pulunu İran hökuməti vermiş, amma bunu gizli şəkildə bir erməni bankı vasitəsilə həyata keçirmişdir. Qeyd edək ki, sənədlər həmin dövrdə Ermənistanın müdafiə naziri olan indiki prezident Serj Sarkisyan tərəfindən imzalanmışdır. Bu fakt Ermənistan mətbuatında geniş şəkildə işıqlandırılaraq öz təsdiqini tapmışdır.[44]

### *2. Narkotik vasitələrin dövriyyəsi*

İran-Ermənistan münasibətlərində "strateji" əhəmiyyət daşıyan sahələrdən biri də narkotik vasitələrin dövriyyəsi məsələsidir. BMT-nin Narkotiklərə Qarşı Mübarizə üzrə Baş Ofisinin məruzələrində qeyd olunduğu kimi, bu, işğal altında olan 132 km-lik ərazidən istifadə etməklə həyata keçirilir. Keçən əsrin 90-cı illərinin sonlarına kimi əsas beynəlxalq narkotik marşrutu olan "Balkan dəhlizi"nin bağlanmasından sonra narkomafiya yeni marşrutlar açdı. Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan əraziləri bu mənada erməni hakim elitası üçün gəlirli biznes sahəsinə çevrildi. Erməni mənbələrində yer alan faktlar da təsdiq edir ki, keçmiş prezident Robert Köçəryan və indiki prezident Serj Sarkisyan Azərbaycanın işğal

43 US embassy cables: US fury at Armenia over arms transfers to Iran, Guardian 28 November 2010, http://www.guardian.co.uk/world/us-embassy-cables-documents/184879

44 Sargsyan, Hakobyan Did Not Deny Armenia's Arms Transfer to Iran: WikiLeaks, http://www.epress.am/en/2010/12/07/sargsyan-hakobyan-did-not-deny-armenias-arms-transfer-to-iran-wikileaks/

altındakı ərazilərindən təbii sərvətlərin talanıb daşınması ilə yanaşı beynəlxalq narkomafiyanın da bu ərazilərdən istifadəsinə şərait yaratmışlar. Ermənistan hakim elitasının beynəlxalq narkomafiya ilə əlaqələri var. Dağlıq Qarabağ üzərindən daşınan narkotiklərdən əldə edilən gəlirin bir hissəsi separatçı rejimin silahlı qüvvələrinin saxlanılmasına, silah və ərzaqla təchizatına sərf edilir.

2010-cu il martın 2-də ABŞ Dövlət Departamenti tərəfindən hazırlanan "Beynəlxalq narkotiklərə nəzarət strategiyası" adlı hesabatda xüsusilə İran və Əfqanıstanın Avropaya narkotik maddələrin daşınmasında əsas tranzit ölkələr olması, İran ilə 611 km-lik sərhədi olan Azərbaycanın hüquq-mühafizə orqanlarının işğal altındakı ərazilərə (132 km) nəzarət edə bilmədiyindən narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizədə çətinliklə üzləşmələri qeyd olunur.[45] Eyni zamanda, hesabatda vurğulanır ki, Əfqanıstanda istehsal edilmiş narkotik maddələrin 95 faizi İrandan və münaqişə zonasında nəzarət edilməyən ərazilərdən daşınır.

Beynəlxalq hesabatların bir çoxunda "nəzarətsiz bölgələr" kimi qeyd olunan Dağlıq Qarabağ narkotiklərin tranziti və terrorçu qrupların fəaliyyəti üçün açıq məkandır. Bu, "nəzarətsiz" boz zonaların İran-Ermənistan əməkdaşlığının inkişafında və klan qruplarının fəaliyyətində əsas yerlərdən birini tutduğu artıq təsdiqlənmişdir. Azərbaycan-İran sərhədinin faktiki olaraq Ermənistan tərəfindən nəzarət edilən 132 kilometrlik hissəsi aktiv şəkildə narkotik maddələrin istehsalı, tranziti və ticarəti, silah və insan alveri, qeyri-leqal miqrasiya, terrorçular üçün sığınacaq, çirkli pulların yuyulması və transmilli cinayətkarlığın digər təhlükəli növləri üçün istifadə olunur. Təhlükəsizlik məsələlərinə məsul yüksək vəzifəli şəxslərin 2010-cu il oktyabr ayının 5-6-ında Soçidə keçirilmiş Birinci Beynəlxalq Görüşündə Azərbaycan nümayəndə heyətinin çıxışında işğal edilmiş ərazilərin nə dərəcədə ciddi beynəlxalq təhdidlər doğurduğuna, İrandan narkotik vasitələrin erməni klanlarının köməkliyi ilə Avropaya daşınmasına dair gətirilən faktlar və dəlillər bunu bir daha təsdiq etdi: "Bu zona milli və

Azərbaycan-İran sərhədinin faktiki olaraq Ermənistan tərəfindən nəzarət edilən 132 kilometrlik hissəsi aktiv şəkildə narkotik maddələrin istehsalı, tranziti və ticarəti, silah və insan alveri, qeyri-leqal miqrasiya, terrorçular üçün sığınacaq, çirkli pulların yuyulması və transmilli cinayətkarlığın digər təhlükəli növləri üçün istifadə olunur.

45 http://www.state.gov/p/inl/rls/nrcrpt/2010/index.htm

beynəlxalq hüququn təsir dairəsindən kənarda olduğuna görə qeyd olunan təhlükələrə qarşı vaxtında və adekvat reaksiya vermək mümkünsüzdür. Buna görə də biz Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlərə milli və regional təhlükəsizliyin təminatı, terrorçu fəaliyyət və digər təhlükələrin aradan qaldırılması işinin bir hissəsi kimi baxırıq". [46]

İranla narkotik satışında Ermənistan rəsmilərinin iştirakı ilə bağlı yayılan məlumatlarda iki ölkə arasındakı narkotik transferinin işğal olunmuş Dağlıq Qarabağ üzərindən həyata keçirildiyi və buradan Levon Ter-Petrosyan başda olmaqla erməni siyasi elitasının gəlir götürdüyü göstərilir.[47]

## 1.3 Ermənistanın İran üçün "strateji" əhəmiyyəti

İran-Ermənistan münasibətlərinin tədqiqi zamanı məlum olur ki, 1979-cu il islam inqilabından etibarən rəsmi Tehranın həyata keçirdiyi xarici siyasət konsepsiyasında və regional siyasətində Yerevanın özünəməxsus bir statusu var. Bu fərqli status iki ölkə münasibətlərinin tarixi əsasları və səmərəliliyində deyil, əksinə istər İranın xarici siyasət konsepsiyasında, istərsə də milli maraqları ilə ziddiyyət təşkil edən xarakterdə münasibətlərin formalaşması və inkişafındadır. Bunun arqumentlərini İranın xarici siyasətində mövcud olan doktrinal prinsiplərdə görmək mümkündür.

İranın regionda apardığı xarici siyasətin mərkəzində siyasi islamın durduğu öz təsdiqini tapmışdır. Bu ölkədə siyasi islamın meydana gəlmə prosesi islam inqilabından sonra din və siyasət arasında olan gərgin münasibətlər dövrünə təsadüf edir. Bölgədə böyük dövlətlərin yürütdüyü irtica siyasətinə qarşı güclü, birləşdirici və müəyyən mənada radikalizmə söykənən ideologiyaya ehtiyac duyulurdu. Bu boşluğu tədricən "şiə həmrəliyi" ilə qidalanan siyasi islam ideologiyası doldurmağa başladı. Nəticədə Yaxın Şərqin siyasi mühiti tamamilə radikalizm, terrorizm və ekstremizm aspektləri ilə zənginləşərək dəyişdi və bu bölgənin elektoratının siyasi islamla sıx əməkdaşlığı başladı. Yuxarıda qeyd olunanları nəzərə aldıqda İran-Ermənistan münasibətlərinin rəsmi Tehranın xarici siyasətinin xarakterinə uyğun olmadığını onun xarici siyasət prinsiplərində də görmək mümkündür. Beləliklə, İranın xarici siyasətinin:

- ***birinci prinsipi*** islam inqilabı xarakteri daşımasıdır.[48] Hər bir inqilabın əsasında inqilab nəzəriyyəsinin dayandığını nəzərə aldıqda, İranın xarici siyasətindəki inqilabi xüsusiyyətin 1979-cu ildə elan edilmiş "Nə Şərq, nə də Qərb - Cumhur-e İslam" [49]

46 «Международный терроризм наряду с оккупацией территорий Азербайджана Арменией - угроза национальной безопасности страны», http://www.1news.az/politics/20101012012848473.html

47 WikiLeaks: former President Ter-Petrossian was personally profiting from narcotics trade to Iran, http://www.panarmenian.net/eng/world/news/60585/WikiLeaks_former_President_TerPetrossian_was_personally_profiting_from_narcotics_trade_to_Iran

48 Mehdi Mozaffari, Iranian *Ideological* Foreign Policy, Centre for Studies in Islamism and Radicalisation (CIR), Denmark, April 2009,

49 İran konstitusiyasının 151 və 152-ci (həmçinin 3, 5 və 11-ci) maddələri də müstəqillik barəsindəki bu tezislərə əsaslanır. İmam Xomeyninin məqsədi həm qərbdən, həm də şərqdən azad olan müstəqil bir dövlət qurmaq idi.

devizində görmək mümkündür.

- ***ikinci prinsipi*** onun totalitar xarakter daşımasındadır. Yəni bütün iqtisadi, siyasi və hərbi məsələlər islam dininin tələblərinə uyğun olmalıdır. Rejimin totalitar xarakterdə olması siyasi liderliyin dini elitanın əlində cəmləşməsində və bunun ölkə konstitusiyasının 110-cu maddəsinə əsaslanmasındadır. [50]

- ***üçüncü prinsipi*** onun "Vestfaliya sistemi"nə qarşı olmasındadır. Yəni İran rejimi islam ümmətinə (Ummat-e İslam) dayanır. Bu da öz növbəsində bu gün teztez ifadə edilən etnik əsaslı "İran milləti" ("Mellat-e İran") ideyasının əks-qütbündə yer alır. [51] Dövlətin ideologiyasını "İslam vətəni" ("Vatan-e İslam") termini ilə ifadə etmək mümkündür ki, bu prinsip torpağı yox, islam dinini və ümmətini qorumağı tələb edir. [52] İslam dininin qorunması isə bütün müsəlman ölkələrinin və onların vətəndaşlarının qorunması əsasında formalaşmalıdır.

- ***dördüncü prinsipi*** onun fars şovinizmi və xarici siyasətə bunun imperialist iddialı xarakter daşımasıdır. Xomeyninin hakimiyyəti dövründə bütün islam dünyasında İranın lider olduğu göstərilirdisə, sonrakı dövrlərdə bu, yalnız şiə dünyası ilə məhdudlaşdırıldı.[53] Bunun İranın regiondakı roluna mənfi təsirindən çəkinən rəsmi Tehran ABŞ-ı bu məqamdan istifadə edərək İranı sünni ərəb dövlətləri ilə qarşı-qarşıya qoymaqda ittiham etmişdir. Lakin sünni ərəb dövlətlərində İranın islam dünyasında liderliyi qəbul olunmur və bu iddia qeyri-real görünür. Həmçinin İran siyasi, mədəni və ənənəvi hesab edilməyən hərbi metodların sxematik kombinasiyaları vasitəsilə bölgədə öz hegemonluğunu qoruyub saxlamalı və elə bir təhlükəsizlik sistemini ortaya çıxarmalıdır ki, İraqda, Əfqanıstanda, Livanda, Ərəb-İsrail münaqişəsində, ümumiyyətlə, bütün Fars körfəzi ölkələrində onun iştirakı olmadan heç bir optimal razılıq əldə etmək mümkün olmasın.

Yuxarıda qeyd olunan İranın xarici siyasət prinsiplərinin Ermənistan ilə münasibətlərə tətbiqinə nəzər yetirəndə əlaqələrin inkişafının doktrinal əsaslarla ziddiyyət təşkil etdiyi açıq şəkildə görünür. Bununla yanaşı, iki ölkə münasibətlərini geosiyasi reallıqda sistemləşdirdikdə oxşar mənzərə ortaya çıxır:

1. ***Strateji*** – İranın regionda təcrid olunmuş vəziyyətdən çıxmasında mühüm rolun Ermənistan tərəfindən oynanıldığı iddia olunsa da, bunun strateji meyar olmadığı məlumdur. Çünki 1991-ci ildə İraq müharibəsindən sonra yaranmış iqtisadi tənəzzül və Qərbin təcridindən çıxması üçün İranın maliyyə vəsaitinə, ticarət əlaqələrini yeni müstəqil dövlətlərlə inkişaf etdirməsinə ehtiyacı vardı. Müqayisə edildikdə, İranla Ermənistan arasında bugünkü ticarət dövriyyəsinin, İran-Azərbaycan iqtisadi münasibətlərinin ilk illərindəki dövriyyə səviyyəsinə hələ də

50 *The Constitution of the Islamic Republic of Iran*, Article 4, p. 20.
51 Mohammad Reza Djalili, *Diplomatie islamique: stratégie internationale du Khomeynisme* (Paris: PUF, 1989), pp. 58-63.
52 Mehdi Mozaffari, göstərilən əsəri, s. 12
53 Karim Sadjadpour, *Reading Khamenei: The world view of Iran's most powerful Leader* (Washington DC: Carnegie Endowment for International Peace, 2008), p. 25.

gəlib çatmadığı bir daha onu sübut edir ki, bu strateji meyar kimi İran üçün deyil, Ermənistan üçün sərfəlidir.

2. ***Coğrafi*** - Ermənistan dənizlərə çıxmaq imkanı qazandı; Ermənistan üçün İran, dənizlərə çıxış imkanı verirsə, Ermənistan İrana Tehran üçün strateji sayılan Rusiya ilə əməkdaşlıq etmək imkanlarını genişləndirmək baxımından heç bir stimul verə bilmir, çünki Gürcüstanı nəzərə almadan bu mümkün deyil.

Ermənistanın regionda Rusiyanın "avanpostu" olduğunu nəzərə aldıqda İranın mənafeyi baxımından rəsmi Yerevanın yox, rəsmi Moskvanın geosiyasi reallığının nəzərə alınması mühüm əhəmiyyət daşıyır. Belə olan halda rəsmi Tehran üçün bu gün Qərb tərəfindən sanksiyalar tətbiq edilərkən Ermənistanın "neytrallığı"nın və ya hansısa reaksiyasının öz müstəqil davranışı olmadığı məlumdur.

3. ***Geosiyasi*** – Ermənistanın regionda Rusiyanın "avanpostu" olduğunu nəzərə aldıqda İranın mənafeyi baxımından rəsmi Yerevanın yox, rəsmi Moskvanın geosiyasi reallığının nəzərə alınması mühüm əhəmiyyət daşıyır. Belə olan halda rəsmi Tehran üçün bu gün Qərb tərəfindən sanksiyalar tətbiq edilərkən Ermənistanın "neytrallığı"nın və ya hansısa reaksiyasının öz müstəqil davranışı olmadığı məlumdur.

Daha öncə iki ölkə münasibətlərinin tədqiqi və hər iki tərəf baxımından münasibətlərin strateji əhəmiyyət daşıyıb-daşımaması, bu günün reallığında verilən cavab birmənalı olaraq rəsmi Yerevanın xeyrinədir. Bu fakt Ermənistanın uzun müddət ərzində İranla bağlarının qüvvətlənməsinə səbəb olacaqdır. Ermənistanla İran arasında ikitərəfli münasibətlər yüksək səviyyədə imzalanmış 200-dən çox sənəd əsasında tənzimlənir. Bu sənədlər arasında hərbi sahədə əməkdaşlığa dair müqavilələr də yer alır.

Son zamanlarda, daha öncə qeyd edildiyi kimi, İran rəsmiləri Yerevana dəstəklərini izhar edən bəyanatlar səsləndirərək, etik-diplomatik dəyərlərlə uzlaşmayan "üçüncü" ölkələrin işlərinə qarışırlar. Bu bəyanatların bir çoxu birbaşa Dağlıq Qarabağ münaqişəsi ətrafında regionun sürətlə silahlandırılmasından yaranan "narahatlıqla" bağlıdır. Bu məqamda İranın Dağlıq Qarabağ münaqişəsində rolu və münaqişənin həllinə münasibəti maraq doğurur.

## 1.4. İranın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi

Özünün xarici siyasət prinsiplərində islam dünyasının lider dövləti olduğunu iddia edən İran müsəlman dünyasının münaqişəli məsələləri ilə bağlı həyata keçirdiyi siyasətlə ideoloji, doktrinal

prinsiplərin ziddiyyət təşkil etdiyi aydın olur. İranın islam dünyasında liderliyinin yalnız şiələr üçün reallıq olduğunu bildirən sünni dünyasının iddiasından çıxış etdikdə də bunun, yəni islam dünyasında İranın liderliyinin paradoksal olduğu anlaşılır. Bu baxımdan "Fələstin" məsələsini xarici siyasətində islam həmrəyliyinin faktoru olaraq göstərən İran əslində bu problemi simvollaşdıraraq bundan əldə edəcəyi siyasi qazancı - sünni ərəb dünyasında antiamerikan əhvali-ruhiyyəsi yaratmağı hədəfləmişdir. Lakin İranın müsəlman dünyasının problemlərinin həllində maraqlı olduğu müşahidə edilmir. Rəsmi Tehranın siyasətində paradoks Dağlıq Qarabağ münaqişəsi ilə bağlı da özünü açıq şəkildə büruzə verir. İran rəsmiləri bir tərəfdən Qarabağın Azərbaycan ərazisi olduğunu qeyd edir, digər tərəfdən münaqişəyə Dağlıq Qarabağda yaşayan ermənilərlə Azərbaycan dövlətinin müharibəsi görüntüsü verməyə çalışırlar. Onlar öz ifadələrində Qarabağın Azərbaycanın tarixi torpağı olduğunu qeyd etsələr də, praktikada bu problemin münaqişəyə çevrilmədən hal-hazırkı vəziyyətdə qalmasını istəyirlər. Xüsusilə, son zamanlarda İran tərəfinin rəsmi Yerevanın Dağlıq Qarabağ münaqişəsində maraqlarını müdafiə edən bəyanatlar səsləndirməsi fonunda İranın münaqişənin həllində rolu maraq doğurur. 1991-ci ildən etibarən İranın Dağlıq Qarabağ münaqişəsindəki mövqeyi aşağıdakı kimi olmuşdur:

*Birincisi,* İran münaqişə müddətində iqtisadi yardımları ilə Ermənistanı gücləndirmiş və Azərbaycan torpaqlarının işğalına göz yummuşdur. 1991-ci ilin dekabrında Dağlıq Qarabağ münaqişəsində vasitəçilik etmək üçün Bakıya rəsmi səfərə gələn İranın xarici işlər naziri Əli Əkbər Vilayətinin görüşlərindən sonra da Ermənistanın işğalçılıq hərəkətlərini davam etdirməsi və 8 may 1992-ci ildə Azərbaycan rəhbərliyinin Tehranda Ermənistan tərəfi ilə danışıqlar apardığı bir zamanda erməni hərbi birləşmələrinin Şuşa şəhərini işğal etməsi bu etimadsızlığın əsasını qoymuşdur.[54]

*İkincisi,* İran Dağlıq Qarabağ münaqişəsinin aktiv hərbi əməliyyatlara keçməsində maraqlı olmasa da, münaqişədə status-kvonun saxlanılmasında iki cəhətdən maraqlıdır:

1. Münaqişə davam etdikcə bunun hər zaman Azərbaycanın iqtisadi inkişafına, dövlətçiliyinin möhkəmlənməsinə mənfi təsir göstərəcəyi nəzərə alınır. ABŞ-ın keçmiş milli təhlükəsizlik müşaviri Zbiqnev Bjezinskinin ifadəsi ilə desək: "Əgər Azərbaycan ona lazım olan siyasi sabitliyə və iqtisadi inkişafa nail olsa, İrandakı azərbaycanlılar "Böyük Azərbaycan" ideyasının reallaşması üçün mübarizə aparacaqlar".[55] Bu baxımdan, heç bir təhlükə ifadə etməsə də, rəsmi Tehranın "preventivliyi" onun ideoloji xarici siyasət prinsiplərinə zidd olaraq müsəlman dövlətinin zəif qalmasını öz yaşam mənası (*raison d'être*) olaraq gördüyünü göstərir.

2. Dağlıq Qarabağ münaqişəsinin həlli

54 http://library.aliyev-heritage.org/az/6163780.html
55 *Zbigniew Brzezinski*. The Grand *Chessboard American Primacy And It's Geostrategic Imperatives, 1998, p.143*

paketində müzakirə olunan məsələlərdən biri də siyasi saziş imzalandıqdan sonra regiona Qərb, daha doğrusu, üçüncü tərəfin sülhməramlı ordusunun yerləşdirilməsidir. Sülhməramlılar məsələsində xüsusilə ABŞ-ın regiona yerləşməsindən narahat olan İran müxtəlif yollarla bu ideyanın reallaşmasına qarşı çıxır və bunu öz milli təhlükəsizliyinə təhdid hesab etdiyini vurğulayır.[56]

*Üçüncüsü,* 2010-cu ilin ortalarından etibarən Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik etməkdə maraqlı olduğunu iddia edən rəsmi Tehranın "neytrallığı" şübhə doğurur. Xüsusilə də, Ermənistanla hərbi əməkdaşlığı və imzaladığı müqavilənin xarakteri bunu deməyə əsas verir. Belə ki, 2002-ci ildə Ermənistanla İran arasında müdafiə və təhlükəsizlik sahələri üzrə İrəvanda imzalanmış əməkdaşlıq haqqında memoranduma görə, hər iki tərəf hərbi məktəblərin kursantlarının mübadiləsindən tutmuş müdafiə təyinatlı məhsullar istehsal edəcək birgə müəssisələrin təsis olunmasınadək qarşılıqlı əməkdaşlıq etməkdədirlər. İran və Ermənistan müdafiə nazirlikləri arasında imzalanmış müqaviləyə əsasən, iki ölkə müharibə şəraitində arxa cəbhə təminatı üzrə əməkdaşlıq edəcəkdir. Ekspertlərin fikrincə, müdafiə sahəsində imzalanan müqavilələr birbaşa Azərbaycana qarşı yönəldilmişdir.[57]

56 Tehran says will oppose 'American forces' in Karabakh, http://www.armenianow.com/karabakh/23799/iran_karabakh_us_peacekeepers

57 Şabanov Gündüz, İran: siyasət milli maraqlarla ziddiyyətdə, http://www.525.az/view.php?lang=az&menu=10&id=26015

Belə olan halda İran rəsmilərinin son dövrlərdə Dağlıq Qarabağ probleminin həllində münaqişə tərəfləri arasında "neytral" qüvvə olaraq danışıqlara təşviq etmək cəhdlərinin heç bir diplomatik əsası olmadığı anlaşılır. Ermənistanın Sivilatas Fondunun xarici siyasət üzrə eksperti Tatul Hakobyanın ifadəsi ilə desək: "1992-1994-cü illərdə rəsmi Tehran Ermənistanın ən çətin anlarında onun dünyaya inteqrasiyasında əsas dayaq nöqtəsi olmuşdur"[58] və bu gün rəsmi Tehranın bu sülhpərvər cəhdləri Ermənistanı düşdüyü çətin vəziyyətdən çıxarmaq səyləri kimi qiymətləndirilə bilər.

Bununla yanaşı, İranın Azərbaycanın işğal olunmuş ərazilərində narkotik vasitələrin ticarətinə, insan qaçaqmalçılığına göz yumması "boz zona" yaratmağın bir təzahürüdür. Azərbaycan-İran sərhədinin faktiki olaraq Ermənistan tərəfindən nəzarət edilən 132 kilometrlik hissəsi aktiv şəkildə narkotik maddələrin istehsalı, tranziti və ticarəti, silah və insan alveri, qeyri-leqal miqrasiya, terrorçular üçün sığınacaq, çirkli pulların yuyulması və transmilli cinayətkarlığın digər təhlükəli növləri üçün istifadə olunur.

Bütün bu faktorlar İranın Dağlıq Qarabağ münaqişəsinin həllində "ikili" mövqe tutduğunu deməyə əsas verir. Münaqişə ilə bağlı İranın siyasəti, əsassız iddia və bəyanatları rəsmi Yerevanın "düşmənimin düşməni mənin dostumdur" deyimindəki məntiqi üstün tutduğunu göstərir.

58 Harout Ekmanian, Armenia-Iran Relations in Light of Recent Developments, 24 November 2010, http://www.armenianweekly.com/2010/11/24/ekmanian-armenia-iran-relations-in-light-of-recent-developments/

## 2. İran-Ermənistan iqtisadi münasibətləri

İranla Ermənistan arasındakı münasibətlərin iqtisadi göstəricilərinə nəzər yetirdikdə bu əməkdaşlığı birtərəfli mənfəət əlaqələri şəklində təsvir etmək mümkündür. Əks halda yuxarıda göstərilən tarixi-siyasi münasibətlərin "dərin" olmaması iqtisadi göstəricilərdə daha aydın görünür.

***Diaqram. 1.*** *İranın Azərbaycan və Ermənistanla iqtisadi əlaqələrində disproporsiya*




*Mənbə: Daxili və xarici bazar həcmi haqqında məlumatlar "Qlobal rəqabətlilik hesabatı. 2010-2011-ci illər", İranla xarici ticarət dövriyyəsi haqqında məlumatlar isə Azərbaycan Dövlət Statistika Komitəsi və Ermənistan Statistika Xidmətindən əldə edilmişdir.*

2009-cu ilin məlumatlarına əsasən, Ermənistanın ixracında İran 4,7 %-lik payla 9-cu ölkədir, işğalçı dövlətin idxalında İranın xüsusi çəkisi 4,9 %, sıralamadakı yeri isə 6-dır. [59] Bir sözlə, İranın Ermənistana ixracı cənub qonşumuzun ÜDM-ində cəmi 0,05%-dən də az paya malikdir. Deməli, İran iqtisadiyyatı üçün Ermənistan bazarının əhəmiyyəti bir faizin yüzdə beşi qədərdir, yəni hətta statistik əhəmiyyətli deyil. Lakin bu iqtisadi əlaqələr Ermənistan üçün isə əksinə həyati əhəmiyyət kəsb edir. İran rəsmiləri iki ölkə arasında ticarət dövriyyəsini 500 milyon,[60] hətta 1 milyard ABŞ dollarına çatdırmaq istədikləri barədə bəyanatlarla çıxış edirlər.[61]

Beləliklə, İran Ermənistanın xarici ticarət dövriyyəsində xüsusi çəkisinə görə Rusiyaya çatmaq və onu ötmək kimi qeyri-real məqsəd güdür. Müqayisə üçün deyək ki, Rusiyanın Ermənistanla ticarət dövriyyəsi 2009-cu ildə 900 milyon ABŞ dolları təşkil etmişdi[62] ki, bu da İran rəsmilərinin arzuladığı rəqəmdən azdır. Bununla yanaşı, İranın Ermənistanla ticarət əlaqələrinin həcmi Rusiyanın maraqları çərçivəsində məhdudlaşdırılıb və perspektivsizdir. Rusiya Ermənistanla İranın ticarət əlaqələrinin inkişafına yalnız islam respublikası üçün daha əlverişsiz ticarət rejimi əsasında razılaşa bilər. Təsadüfi deyil ki, 1996-2009-cu illər ərzində İranın Ermənistanla xarici ticarət əlaqələrinin həcmi cəmi 1,7 milyon ABŞ dolları civarında artmışdır. Əgər valyutanın devalvasiyasını da nəzərə alsaq, bu, real ifadədə azalma deməkdir. Belə vəziyyət bir daha təsdiq

59 Export and import of the Republic of Armenia by countries, 2010, http://www.armstat.am/file/doc/99461633.pdf

60 Иран намерен наращивать преимущественно экономическое сотрудничество с Арменией, http://www.regnum.ru/news/1181385.html

61 Ирано-армянская дружба, или Пара слов о «моральном» праве судить соседей, 2011, http://1news.az/analytics/20110124012408830.html

62 Export and import of the Republic of Armenia by countries, 2010, http://www.armstat.am/file/doc/99461633.pdf

edir ki, Rusiya Ermənistan iqtisadiyyatında İranın iştirakını dar çərçivədə tanıyıb və İranın Ermənistanda möhkəmlənmək arzusu "yel dəyirmanı ilə mübarizəni xatırladır". Ermənistanla əlverişsiz şərtlərlə və Rusiyanın diktəsi altında qurulan iqtisadi əlaqələrə İranın marağı heç bir məntiqə sığmır.

***Cədvəl 1.*** *Ermənistandan İrana ixrac və idxal əməliyyatlarının dinamikası (milyon ABŞ dolları)*




*Mənbə: Ermənistanın Statistika Xidməti*

olmalı idi. Məsələn, əgər 2009-cu ildə İranın Ermənistanla xarici ticarət dövriyyəsi 195 milyon ABŞ dolları təşkil edirdisə, Azərbaycanla əmtəə dövriyyəsi bundan dəfələrlə artıq potensiala malikdir. Əslində isə 2009-cu ildə İranın Azərbaycanla ticarət dövriyyəsi Ermənistanla olan xarici ticarət əlaqələrinin həcminin 86 faizi, başqa sözlə desək, 169 milyon ABŞ dolları təşkil edib. İranın daha iri bazar və iqtisadi əlaqələri təmin edə biləcək inkişaf etmiş infrastruktur, habelə din, tarix, dil və mədəniyyət yaxınlığı olan Azərbaycana nisbətən sadalanan arqumentlərin hər biri ilə zəif təmin olunmuş Ermənistanla daha irimiqyaslı ticarət əlaqələri qurması ən azı iqtisadi məntiqə sığmır.

Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan daxili bazarın həcminə görə planetin 84-cü ölkəsi olduğu halda, Ermənistan 111-ci yerdə qərarlaşıb. Xarici bazarın həcminə görə isə dünya ölkələri arasında Azərbaycan 60-cı, Ermənistan 129-cu mövqedədir. Əslində İran daxili və xarici bazar miqyasları nisbətən böyük olan Azərbaycanla xarici əmtəə dövriyyəsində daha maraqlı

Müqayisə üçün deyək ki, Ermənistanla sərhədləri bağlayaraq hər cür iqtisadi əlaqələrdən imtina edən Türkiyənin Azərbaycanla ticarət dövriyyəsi 2009-cu ildə 1 milyard ABŞ dollarını keçirdi ki, bu da İranın Ermənistanla qurduğu xarici

ticarətin həcmindən 4-5 dəfə çoxdur. Hansı ki, İran və Türkiyə müqayisə oluna biləcək iqtisadi imkanlara malikdirlər. Türkiyənin təcrübəsi göstərir ki, Ermənistanla iqtisadi əlaqələrdən imtina edib Azərbaycanla əməkdaşlıq etmək daha faydalıdır. İran da gərək məhdud Ermənistan bazarını əldə etmək naminə Azərbaycan kimi iqtisadi qüdrəti olan ölkəni görməməzlikdən gəlməsin.

## 2.1. İranın qazandığı "işıq çatışmazlığı" sindromu

Daxili bazarının miqyasına görə dünyanın 30-cu, xarici bazarının miqyasına görə isə 10-cu ən kiçik iqtisadiyyatına malik Ermənistanda[63] İranın investisiya maraqlarının nə dərəcədə səmərəli olması sual doğurur. Dünyada 2-ci ən böyük təbii qaz ehtiyatına malik İran əgər investisiya çatışmazlığından təbii qaz idxal etmək məcburiyyətindədirsə, Ermənistana yatırılması planlaşdırılan sərmayələrin hansı iqtisadi məqsədəuyğunluğundan söhbət gedə bilər? İran şimal rayonlarını "mavi yanacaq"la təmin etmək üçün Azərbaycana ehtiyac duyduğu halda, Ermənistana çəkilən 186 kilometrlik qaz xəttinə investisiya yatırarkən və bu kəməri qazla təmin etmək üçün gündəlik 6,3 milyon kubmetrlik təbii qaz vəd edərkən hansı "texniki-iqtisadi əsaslandırmaya" söykənib?

Əgər İran rəsmiləri Ermənistana qaz satışının qarşılığında elektrik enerjisi almağın səmərəliliyini izah etməyə çalışırlarsa, bunun məntiqi izahını verməkdə böyük çətinliklə üzləşəcəklər. Çünki xammal (təbii qaz) satıb, əvəzində hazır məhsul (elektrik enerjisi) alınırsa, bu istehsal zəncirində iqtisadi dəyərin bir hissəsinin İrandan könüllü şəkildə Ermənistana bəxş edilməsidir. Nəzərə almaq lazımdır ki, İran İnkişaf və İxrac Bankı Ermənistana çəkilən qaz kəmərinin birinci hissəsi üçün 30 milyon ABŞ dolları ayırıb,[64] üstəlik qazın və elektrik enerjisinin daşınması müvafiq xərclər və itkilərlə müşayiət olunur. Nəhayət, belə sövdələşmə İranın enerji təhlükəsizliyinə xələl gətirir. Qeyd edilməlidir ki, İran enerjini ən səmərəsiz istifadə edən ölkələr sırasındadır, istehlakçılara çatana qədər elektrik enerjisinin 18,5 %-i itkiyə gedir.[65] Elektrik enerjisinin

> Dünyada elektrik enerjisi istehsalına görə 19-cu, istehlakına görə isə 20-ci yerdə olan İranın Araz çayının üzərində Mehri Su Elektrik Stansiyasının (SES) tikintisinə 323 milyon ABŞ dolları həcmində investisiya ayırmağa və 15 ildən sonra stansiyanın tamamilə Ermənistana təhvilinə razılıq verməsi iqtisadi əsaslarla izah oluna bilməz.

63 The Global Competitiveness Report 2010-2011, World Economic Forum

64 Энергетичекие интересы Ирана в Каспийском Регионе, Альберт Зульхарнеев, Индекс Безопасности, №2, 2009

65 http://www.iran-daily.com/1388/3374/html/economy.htm

Ermənistandan idxalı da məsafə baxımından itkiləri çoxaldır və İrana sərf etmir. Beləliklə, İran Ermənistana elektrik enerjisi əvəzinə qaz satmaqla iqtisadi və enerji təhlükəsizliyi baxımından yalnız itirir. Üstəlik bu sıraya Azərbaycanın, Türkiyənin və Rusiyanın mənfi reaksiyalarını da əlavə etsək, bu sövdələşmə İranın ziyanına, Ermənistanın isə xeyrinədir.

Bütün bu iqtisadi səmərəsizliyə baxmayaraq İran Ermənistanın elektrik enerjisi ilə təminatında səylərini davam etdirir. Dünyada elektrik enerjisi istehsalına görə 19-cu, istehlakına görə isə 20-ci yerdə[66] olan İranın Araz çayının üzərində Mehri Su Elektrik Stansiyasının (SES) tikintisinə 323 milyon ABŞ dolları həcmində investisiya ayırmağa və 15 ildən sonra stansiyanın tamamilə Ermənistana təhvilinə razılıq verməsi iqtisadi əsaslarla izah oluna bilməz. İran İnkişaf və İxrac Bankı yüksəkvoltlu İran-Ermənistan elektrik xəttinin və yarımstansiyanın tikintisinə 107,9 milyon avro ayırıb.[67] Bu üçüncü xətt 2013-cü ildə fəaliyyətə başlayandan sonra iki ölkə arasında enerji svop əməliyyatları iki dəfə artacaq.[68] Bu vəziyyətdə belə bir sual yaranır: İran bu sövdələşmədən nə əldə edir?

*Birincisi,* İranda elektrik enerjisinə tələbatın illik 10 % artdığını və subsidiyaların azaldığını nəzərə aldıqda[69] onun işğalçı Ermənistana bu sahədə dəstək verməkdən daha çox ölkə daxilində yeni enerji güclərinin yaradılmasına ehtiyacı var.

*İkincisi,* Ermənistanda adambaşına illik 1800 kilovatt/saat elektrik enerjisi hasil edildiyi halda, İranda bu göstərici 3000 kilovatt/saat civarındadır. Deməli, İran öz əhalisinin pullarını Ermənistanın enerji təhlükəsizliyinə xərcləyir.

*Üçüncüsü,* 2007-2008-ci illərdəki quraqlıq göstərdi ki, regionda SES-lərin fəaliyyətində fasilələr yaranır.[70] Belə olan halda İran kimi enerji ilə zəngin olan ölkənin SES tikintisində marağı nədir? Bütün bu qeyd olunanlar rəsmi Tehranın Ermənistana nə maddi, nə də mənəvi prinsiplərə sığan dəstəyini izah etməyə bir səbəb vermir.

## 2.2. İranın Ermənistanı qaz dəhlizinə çevirmək istəyi

İran Ermənistana qaz kəməri çəkməklə gələcəkdə bu ölkənin üzərindən Gürcüstana, Ukraynaya və hətta Avropaya “mavi yanacaq” çıxarmaq istəyirdi. Lakin vəziyyətin düzgün qiymətləndirilməməsi, xüsusən Ermənistanın faktiki olaraq Rusiya üçün forpost olmasının nəzərdən qaçırılması İran rejiminin bu niyyətini tam fiaskoya uğratdı. Məsələ ondadır ki, Rusiya İranın niyyətini başa düşüb vaxtında rəsmi Tehran üçün enerji istehsal edəcək Razdan İstilik-Elektrik Stansiyası (İES) və Ermənistanın qaz şəbəkəsinə nəzarət edən “ArmRosqazprom”u (səhmlərinin 80

66 https://www.cia.gov/library/publications/the-world-factbook/geos/ir.html

67 Ирано-армянская дружба, или Пара слов о «моральном» праве судить соседей, 2011, http://1news.az/analytics/20110124012408830.html

68 Power Swap With Armenia Will Double, http://www.iran-daily.com/1389/10/2/MainPaper/3852/Page/4/?NewsID=32317

69 http://www.entrepreneur.com/tradejournals/article/197642455.html

70 Энергетичекие интересы Ирана в Каспийском Регионе, Альберт Зульхарнеев, Индекс Безопасности, №2, 2009

%-i Rusiyanın "Qazprom" şirkətinə, 20 %-i isə Ermənistan hökumətinə aiddir) dərhal ələ keçirdi. Bunun üçün rəsmi Moskvanın Yerevana sadəcə diktəsi kifayət etdi. Beləliklə, İranın Ermənistan üzərindən Avropaya qaz çıxarmaq istəyi Rusiyanın vaxtında müdaxiləsi ilə rəsmi Moskvanın nəzarəti altına keçdi. Avropa, Gürcüstan, Ermənistan və Ukraynanın qaz bazarında başqa rəqib (özü də İran kimi 29 trilyon kubmetrlik qaz ehtiyatı olan) görmək istəməyən Rusiyanın sərt təpkisi qarşısında İranın Ermənistana istiqamətlənmiş iqtisadi diplomatiyası uğursuzluğa düçar oldu. **Hətta bu gün İran Ermənistanda "Qazprom səddi"ni aşsa belə, Gürcüstanda Qərbin yaratdığı "Çin səddi"ni aşa bilməyəcək. İran rejimi çoxdan Ermənistanla qaz sövdələşməsinin nə regional iqtisadi, nə də ki uzaqmənzilli geosiyasi məqsədlərinə çatmadığının, yalnız Ermənistanda Rusiyanın "dəyirmanına su tökmək" anlamına gəldiyinin fərqindədir.**

Bütün bunlarla yanaşı, Azərbaycan bu sahədə yeritdiyi çevik diplomatiya nəticəsində İranın əldə edə bilmədiyini artıq Gürcüstan ərazisində reallaşdırmaq ərəfəsindədir. Gürcüstanın təbii qaz infrastrukturunda Azərbaycan dominant mövqedə durub, hətta Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) Gürcüstan üzərindən Ermənistana gedən qaz kəmərini də almaq istəyindədir. İndi mollakratiya fikirləşməlidir ki, Gürcüstan kimin sözünü deyəcək: ona dost olan Azərbaycanın, yoxsa onunla düşmənçilik edən Ermənistan və Rusiyanın? Bəlkə, Qərbin bir nömrəli düşməni olan mollakratiya İranın rəsmi Tbilisiyə - Qərbin regiondakı ən yaxın partnyoruna hər hansı ciddi təsiri olacağını düşünür?

Əgər rəsmi Tehran qaz sahəsində Azərbaycanla əməkdaşlığı gücləndirsə, Ermənistanda puça çıxan ümidlərini doğrulda bilər. Bunun üçün isə İran Ermənistanda Rusiya tərəfindən qurulmuş qaz labirintindən çıxmalıdır. Ermənistandan imtina edəcəyi təqdirdə Azərbaycanla İranın qaz sahəsində əməkdaşlıq potensialı genişdir. 2011-ci ilin yanvarında ARDNŞ və İranın Milli Qaz İxracı Şirkəti arasında Azərbaycan təbii qazının alqı-satqısına dair sazişin əsas şərtləri imzalanmışdır. Bu əsas şərtlərdə müqavilənin 5 illik müddətə bağlanacağı və 2011-ci ildə qaz ixracının 1 milyard kubmetr həcmində olmaqla gələcək hər il üçün yenidən razılaşdırılması öz əksini tapmışdır.[71] Məsələ ondadır ki, İranın əsas qaz ehtiyatları ölkənin cənubunda cəmləşsə də, şimal bölgəsi sənayecə daha çox inkişaf etmişdir. Bu səbəbdən mavi yanacağa daha çox tələbatı var (ABŞ-ın Enerji İnformasiyaları İdarəsinin (EİA) hesablamalarına görə, Xəzərin cənubunda, yəni İrana aid sektorda təsdiqlənmiş 0.1, ehtimal olunan isə 15 milyard barel neft ehtiyatı var). Belə olan halda İran məhdud səviyyədə hasil olunmuş təbii qazı Ermənistana ötürüb "Qazprom"a işləməkdənsə, gələcəkdə heç bir əlavə sərmayə qoymadan Azərbaycandan "mavi yanacaq" almaqla şimal rayonlarının qazlaşdırılmasını təmin edə bilər.

71 http://socar.az/3004-news-view-az.html

2009-cu ilin yanvarında İranın neft nazirinin müavini Hüseyn Şirazi bildirmişdi ki, onun ölkəsi "Şahdəniz" yatağının işlənilməsinin ikinci fazasına 1,7 milyard ABŞ dolları investisiya yatırmaqda maraqlıdır[72]. Qeyd edək ki, İranın Milli Neft Şirkəti "Şahdəniz" yatağı üzrə 10% paya malikdir. Beləliklə, Azərbaycana məxsus yataqda fəaliyyət göstərməklə İran Xəzərin karbohidrogen resurslarının irimiqyaslı işlənilməsi prosesində ilk dəfə yaxından iştirak edə bilər. Ermənistanla olan səmərəsiz əməkdaşlıqdansa, Azərbaycana yaxınlaşmaq və dünya əhəmiyyətli "Şahdəniz" yatağının ikinci fazasında iştirak etmək İran üçün müqayisəolunmaz dərəcədə daha sərfəli olardı.

## 2.3. Ermənistan dəmir yolları üçün "depo"dur

İranla Ermənistan arasındakı səmərəsiz və gələcəyi parlaq olmayan iqtisadi münasibətlərin digər bir forması iki ölkə arasında dəmiryol dəhlizinin yaradılması cəhdlərində özünü büruzə verir. Hətta Ermənistanın nəqliyyat və rabitə naziri Manuk Vardanyan ölkəsini İranla birləşdirəcək Şimal-Cənub dəmiryolu xəttinin texniki-iqtisadi əsaslandırılmasının işlənilməsi üçün maliyyə mənbələri axtardıqlarını bildirmişdir.[73] Əgər Ermənistan illərdir müzakirəsi gedən İran-Ermənistan dəmiryolu xəttinin heç texniki-iqtisadi əsaslandırılmasını belə maliyyələşdirə bilmirsə, rəsmi Tehran hansı perspektivə əsaslanıb bu layihəyə razılıq verir? Uzaq perspektivdə Rusiya və İranı bir-biri ilə əlaqələndirməyə hesablanan Ermənistandan keçəcək Şimal-Cənub dəmiryolu xəttinin müəllifləri yenə də bir nüansı yaddan çıxarırlar: Gürcüstan faktoru. Çünki Gürcüstanın milli dövlət maraqları Rusiyanın regionda nüfuzunun artmasına, xüsusilə də prosesin ona qarşı ərazi iddiasında olan Ermənistan tərəfindən reallaşdırmasına qarşıdır.

> Rusiya İranın Ermənistan iqtisadiyyatında iştirak hüququnu məhdud çərçivədə tanıyır: Tehran Ermənistan üçün fors-major hallarında təcili yardım xidməti rolunu oynayır.

Gürcüstanın Şimal-Cənub dəmiryolu xəttinin çəkilməsindən sonra tranzit mövqeyindən dividendlər qazana bilməsi arqumentini Rusiyanın və İranın regiondakı nüfuzuna qarşı olan Qərbin rəsmi Tbilisinin siyasətinə təsir imkanları zərərsizləşdirir. Beləliklə, İran və Ermənistanı birləşdirəcək Şimal-Cənub dəmiryolu xəttini də eyni nöqtələri birləşdirən qaz kəmərinin taleyi gözləyir. Şimal-Cənub depoya gedən dəmiryol xəttidir: buna görə 2 milyard ABŞ dolları

72 Энергетические интересы Ирана в Каспийском Регионе, Альберт Зульхарнеев, Индекс Безопасности,№2, 2009

73 http://www.arka.am/rus/transport/2011/01/25/23616.html

xərcləməyin mənası yoxdur. Çünki Rusiya İranın Ermənistan iqtisadiyyatında iştirak hüququnu məhdud çərçivədə tanıyır: Tehran Ermənistan üçün fors-major hallarında təcili yardım xidməti rolunu oynayır. 2008-ci ilin Gürcüstan hadisələri də göstərdi ki, Ermənistanın tam blokadaya düşməməsi üçün Rusiya öz forpostundan İrana açılan "nəfəs"liyi daim açıq saxlamalıdır. Ermənistanın onsuz da məhdud olan daxili bazarında üstəlik Rusiyanın icazə verdiyi limitlər daxilində xarici ticarət əlaqələri naminə 2 milyard ABŞ dolları dəyərində dəmiryolu xəttinin tikintisi heç bir iqtisadi əsaslandırmaya sığa bilməz. İranın Ermənistanla orta hesabla 200 milyon dollarlıq xarici ticarət əlaqəsini gerçəkləşdirmək üçün 2 milyard dollarlıq dəmiryolu xəttinin bir layihə kimi özünü ödəmə əmsalı çox aşağıdır və bu layihə rentabelli deyil. **Əslində İranın birinci vitse-prezidenti Məhəmməd Rza Rəhimi dəmiryolunun çəkilməsində öz ölkəsinin niyyətini bəyan etmişdir: "...Bu dəmiryolu imkan verəcək ki, Ermənistan İran üzərindən başqa ölkələrlə əlaqə saxlasın".**[74] Göründüyü kimi, İran qazanılmış investisiya çatışmazlığı sindromu şəraitində Ermənistanın xarici aləmlə əlaqələrinin yaranması üçün dəmiryolu layihəsinə razılıq verir.

> Əgər İran Şimal-Cənub dəhlizi çərçivəsində tranzit ölkəyə çevrilmək istəyirsə, məsafənin qısalığı, daşımalara daha az vaxt sərf olunması və mövcud nəqliyyat infrastrukturu baxımından daha əlverişli vəziyyətdə olan Azərbaycanla əməkdaşlıq etməlidir.

Əgər İran Şimal-Cənub dəhlizi çərçivəsində tranzit ölkəyə çevrilmək istəyirsə, məsafənin qısalığı, daşımalara daha az vaxt sərf olunması və mövcud nəqliyyat infrastrukturu baxımından daha əlverişli vəziyyətdə olan Azərbaycanla əməkdaşlıq etməlidir. Azərbaycan və İran dəmir yolları şəbəkəsinin birləşdirilməsi üçün Astara (Azərbaycan) – Astara (İran) dəmiryolu xəttinin və Astaraçay üzərindən dəmiryolu körpüsünün inşası nəzərdə tutulur. Dəhliz üzərində İran-Azərbaycan-Rusiya dəmiryolu şəbəkəsinin birləşdirilməsi üçün İran ərazisində uzunluğu 350 km olan Qəzvin-Rəşt-Ənzəli-Astara yeni dəmiryolu xətti inşa edilməlidir. Məlumata görə, İranda bu yeni dəmiryolu xəttinin tikintisi İran dəmiryolları şəbəkəsinin inkişaf planına daxil edilmiş və ilkin texniki əsaslandırma işləri görülmüşdür.[75] Aparılmış təhlillərə görə, dəhlizin Azərbaycan ərazisindən keçən hissəsində gözlənilən yükdaşımaların həcmi birinci üç il ərzində 2 milyon tona, ikinci mərhələdə 5-6 milyon tona, üçüncü mərhələdə, yəni birbaşa dəmiryolu əlaqəsi yaradıldıqdan sonra 15 milyon tona

74 Joint Economic Commission With Armenia, http://iran-daily.com/1389/8/5/MainPaper/3811/Page/4/?NewsID=28565
75 Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi, http://www.azerbaijan.az/_Economy/_Ways/ways_04_a.html

qədər artacağı gözlənilir. Beləliklə, Şimal-Cənub dəhlizinin inkişafına Azərbaycanın verəcəyi töhfə Ermənistan kimi regional dalanla müqayisədə xeyli yüksəkdir. Bütün iqtisadi hesablamalar Azərbaycanın xeyrinə olduğu bir şəraitdə İranın Şimal-Cənub dəmiryolu xəttinin tikintisində tranzit baxımından əlverişsiz Ermənistana üstünlük verməsi anlaşılan deyil.

Hətta erməni müəllifləri də razılaşırlar ki, Qars-Axalkalaki və ya Batumi-Rizə, habelə Qəzvin-Rey-Astara dəmiryolu xətlərinin çəkilişi, İran ərazisindən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında dəmiryolu və avtomobil nəqliyyatı əlaqəsinin yaradılması Ermənistanın izolyasiyası ilə nəticələnəcək.[76] Ermənilər özləri dalana dirəndiklərini etiraf etdikləri halda İran dövlətinin milyonlarla sərmayə yatırıb işğalçı ölkəni dalandan çıxarmağa cəhd göstərməsi ölünü diriltmək kimidir və bu siyasətin iqtisadi əsasları yoxdur.

## 2.4. Öz əhalisinə subsidiyaları azaldan İran Ermənistana daha çox yardım edir

İranla Ermənistan arasındakı səmərəsiz iqtisadi əlaqələri tədqiq edərkən bu münasibətlərdə az da olsa səmərəlilik axtarışı nəticəsiz qalır və bir çox suallar yaranır. Xüsusilə, İranın neft naziri Məsud Mirkazıminin "İranın Təbriz şəhərindən Ermənistan sərhədinə qədər yeni neft kəməri çəkiləcək"[77] açıqlaması bu sualları yaradan amillərdən biridir.

Məsələ ondadır ki, İran şimal regionlarında neftayırma zavodlarının istehsal gücünü artırmaq və infrastrukturu yaxşılaşdırmaq hesabına bu bölgənin tələbatını güclə ödəyir. Nəticədə Qazaxıstan və Türkmənistanla svop əməliyyatlarına gedərək, onlardan şimaldakı neftayırma zavodları (Rey, Təbriz və Neka) üçün aldığı nefti cənubda Fars körfəzində geri qaytarır. Çünki İranın elə infrastrukturu yoxdur ki, cənubda hasil etdiyi nefti şimalda sənayecə inkişaf etmiş bölgələrə çatdırsın. Belə olan halda İran türkmən və qazax nefti hesabına şimaldakı neftayırma zavodlarının tələbatını ödəyir. İranın şimalında neft çatışmazlığı hiss olunduğu halda Ermənistana yeni neft kəmərinin çəkilişi hansı iqtisadi məntiqə sığır? Yaxşı olmazdımı ki, İran özünün şimal rayonlarının tələbatını ödəsin, ondan sonra Ermənistan barədə fikirləşsin? Necə olur ki, İran neft məhsullarına verdiyi daxili subsidiyaları azaltdığı halda, Ermənistana subsidiyaları artırır.

## 2.5. Ermənistana gedən "qara yollar"

Şimal-Cənub dəhlizi çərçivəsində Rusiya, İran və Hindistanın razılığa gəldikləri avtomobil yolunun da Ermənistan ərazisindən keçirilməsi nəzərdə tutulur. Amma iqtisadi səmərəliliyinə görə yox, məhz siyasi intriqaların nəticəsi olan belə bir yolun çəkilişi perspektivsizdir. Təsadüfi deyil ki, Şimal-Cənub avtomobil

76 Новые геоэкономические тенденции на Южном Кавказе, Игорь Мурадян, 2010, http://geopolitika.ru/Articles/993

77 Iran to boost energy exports to Armenia, 2011, http://www.tehrantimes.com/index_View.asp?code=235090

yolunun 11,7 kilometrlik Yerevan-Aştarak hissəsinin tikintisi üzrə elan olunmuş tender qalib elan edilməyərək fiaskoya uğrayıb.[78] Heç bir rasional investor iqtisadi səmərəsi olmayan, yalnız Ermənistanı ayaq üstə saxlamağa xidmət edən bir layihəyə görə milyonlarla dollarını təhlükə altına atmaz. Çünki bu layihənin riskləri (kommersiya, siyasi və s.) yüksəkdir. İran ən güclü antiazərbaycan koalisiyasına qoşulsa belə, Ermənistanı tranzit dəhlizinə çevirə bilməyəcək. Hətta ən bədbin hesablamalara görə, Azərbaycanın yaratdığı imkanlar çərçivəsində Gürcüstan illik 250 milyon ABŞ dolları həcmində tranzit gəliri əldə edir[79] ki, bu da dövlət büdcəsinin 10%-i deməkdir. İranın rəsmi Bakının iradəsi əleyhinə gedərək Ermənistan üzərindən yeni dəhliz açması qeyri-real görünür. İran-Ermənistan tranzit vektorunun Avropaya irəliləməsinin qarşısında Gürcüstanın sədd çəkəcəyini gücləndirən daha iki arqument var: Azərbaycan rezidentləri Gürcüstanda ən iri investorlar və vergi ödəyiciləridir. Beləliklə, Azərbaycanın geoiqtisadi əhəmiyyəti "dəhliz" deyil, "regional tranzit mərkəzi" paradiqması ilə assosiasiya olunur. Rəsmi Tehran tranzit məsələlərində Azərbaycanın artıq obyekt yox, subyekt, özü də güclü təsir rıçaqlarına malik bir regional oyunçu olmasını qəbul etməlidir. Bu baxımdan Azərbaycanın iradəsi əleyhinə gedərək İranın Ermənistanda gerçəkləşdirdiyi demo layihələr rəsmi Tehran üçün resurs və vaxt itkisidir.

78 Проект строительства второго участка автодороги Север-Юг будет готов в марте 2011 года – министр, http://www.miacum.ru/gazeta/2010/12/24/Проект_строительства_второго_участка_автодороги_Север-Юг_будет_готов_в

79 Новые геоэкономические тенденции на Южном Кавказе, Игор Мурадян, 2010, http://geopolitika.ru/Articles/993

# Nəticə

İran-Ermənistan münasibətlərində siyasi və iqtisadi sahələrdəki əlaqələri tədqiq edərkən geosiyasi mənfəət baxımından hər iki ölkə üçün bir sıra nəticələrə gəlmək mümkündür.

Ermənistan baxımından nəticələri aşağıdakı kimi sistemləşdirmək olar:

*Birincisi,* İran-Ermənistan əlaqələrinin 90-cı illərdən başlayan tarixi inkişafı Rusiyanın rəsmi Yerevana icazə verdiyi şəkildə inkişaf etmiş və Rusiya-İran münasibətlərinin inkişaf tempindən birbaşa asılı olmuşdur. Hətta rəsmi Moskva Ermənistanın regional nəqliyyat layihələrindən təcrid olunmasında maraqlı olmasa da, bütün mümkün vasitələrlə Ermənistanı "kaliningradlaşdırmağa", yəni nəzarət altında saxlamağa çalışmışdır. Vəziyyətə nəzər salsaq görərik ki, əksər irihəcmli müəssisələri Rusiyanın nəzarəti altında olduğu bir halda, Ermənistanın rəsmi Moskvadan asılılığını qırmaq üçün zəruri iqtisadi bazanın formalaşdırılması cəhdləri iflasa məhkumdur. Ermənistan iqtisadiyyatı mahiyyət etibarilə Rusiyaya tabedir. Belə olan halda Ermənistanın sərbəst şəkildə İranla müstəqil xarici siyasət həyata keçirdiyini demək yanlış olardı. Çünki İran-Ermənistan sərhədi[80] hər mənada Rusiya tərəfindən qorunur.

*İkincisi,* Ermənistanın xarici siyasətində "komplementar" ("tamamlayıcı") siyasət kursunun iflasını göstərmək olar. Ermənistanın həyata keçirdiyi uğursuz xarici siyasət nəticəsində ÜDM-in illik 10-13%-i itirilir.[81] Bununla yanaşı, "komplementarizm" adı altında xarici siyasət kursunun mövcud olmadığı artıq həm erməni, həm də beynəlxalq ekspertlər tərəfindən qəbul olunur. Birbaşa İranla bağlı "komplementarizmin" olmadığına misal kimi 2002-ci ildə ABŞ Dövlət Departamentinin İrana kimyəvi avadanlıq satmaqda təqsirləndirilən Ermənistan şirkətinə qarşı sanksiyalar tətbiq etməsi[82] və Ermənistan hökumətinin bunun qarşısında geri addım atması göstərilə bilər.[83] Göründüyü kimi, Ermənistan ona qarşı təzyiqlər mühitində xarici siyasətində bir anda geri çəkilərək "səmərəli" əlaqələrini təhlükə altına qoyur. Məhz bu hadisədən sonra İranın Ermənistandakı səfiri Məhəmməd Koyelini Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyana demişdir: "Siz düşünmürsünüz ki, öz siyasətinizi təsvir etmək üçün "komplementarizm" əvəzinə "çoxtərəfli əlaqələr" ifadəsini işlətmək daha düzgün olar?"[84] Ermənistan xarici siyasətinin ən düzgün qiymətini bu ölkənin keçmiş prezidenti Levon Ter-Petrosyan 8 dekabr 2007-ci ildə "Azadlıq" meydanındakı nitqində

80 Avropa Şurasının 2011-ci ilin fevral ayındakı məruzəsində açıq şəkildə göstərilir ki, İran-Ermənistan sərhədi Rusiya silahlı qüvvələri tərəfindən qorunur. Bax: February 2011 report on Armenia by the Council of Europe's Anti-Racism Commission.

81 Lev Freinkman, Cost of Closed Borders for Armenia Trade, Journal of Economic Policy and Poverty,2010, s.9

82 US imposes sanctions on Armenian entities, 5/9/2002,http://www.nti.org/db/nisprofs/armenia/excondev.htm

83 Armenia: Westward Foreign-Policy Shift Brings Unease in Iran http://www.eurasianet.org/departments/insight/articles/eav100502.shtml

84 Yenə orada

vermişdir[85]: "Robert Köçəryan və Serj Sarkisyan Ermənistanı öz xüsusi mülkləri kimi görürlər, öz ailə mənsubları və uzaq qohumları ilə əlaqələri olanlar arasında paylaşmaqdadırlar. Qarabağda işdən azad olunan vəzifə sahibləri tez bir zamanda Ermənistanda işlə təmin edilir. Yavaş-yavaş qarabağlılar ölkəmizin iş dünyasını ələ keçirirlər". Bunun nəticəsi olaraq daxildə Qarabağ klanı və xaricdəki diaspor ilə hesablaşan hakimiyyət, eyni zamanda 2003-cü ildə mühüm dövlət obyektlərini Rusiyaya satmasına və qlobal maliyyə böhranından sonra iqtisadiyyatının iflic vəziyyətdə olmasına görə rəsmi Moskva ilə hesablaşır. Bu tipli xarici siyasət kursunu açıq şəkildə "komplementarizm" və ya "balanslı siyasət" adlandırmaq olmaz.

*Üçüncüsü,* Ermənistan rəsmi şəkildə İran ilə əlaqələrin intensivləşməsinə səbəb olaraq 2009-cu ilin yanvar ayında Rusiya ilə Ukrayna arasında yaranmış qaz böhranından sonra Avropa ölkələrinin İran ilə əlaqələrini normallaşdırma istəkləri və bunun müqabilində rəsmi Yerevanın ölkənin maraqlarını müdafiə etmək adına əlaqələrin inkişafına cəhd etdiyi bildirilir. [86] Əslində bu paradiqmanın yaranması müəyyən qədər enerji maraqları ilə əsaslandırılsa da, rəsmi Yerevanın "rus" təsirindən uzaq xarici siyasət həyata keçirməsi qeyri-mümkün görünür. Buna misal olaraq yaxın tarixə aid iki hadisəni qeyd etmək mümkündür. *Birincisi,* Rusiya 2006-ci ilin aprel ayında Ermənistana nəql etdiyi qazın qiymətini qaldırdıqdan və Rusiya-Gürcüstan sərhədində Verxniy Lars keçid məntəqəsini (Ermənistanın Rusiya ilə yeganə torpaq yolu əlaqəsi) bağladıqdan sonra hətta Rusiyaya meyilli bir çox siyasətçilər bu ölkənin ən sadiq tərəfdaşına, yəni bu halda Ermənistana qarşı siyasətinin etibarlılığını şübhə altına aldılar. İkincisi isə 2010-cu ilin iyun-iyul aylarında erməni mətbuatı hərbi situasiyanın ölkə əleyhinə inkişafını öz dövlətinin uğursuzluğu kimi qələmə vermiş və Ermənistanın Rusiyanın təsiri altında olmasını Rusiyanın "pis kopyası"[87] kimi səciyyələndirərək bunun mənfi tendensiya yaratdığını qeyd etmişdilər. Xüsusilə, avqust ayında Rusiyanın Ermənistandakı hərbi bazalarının istifadə müddətini artıran müqaviləyə imza atmasana qədər erməni cəmiyyətindəki xof davam etmişdir. Bütün bunlar açıq şəkildə göstərir ki, Rusiya istənilən vaxt erməni cəmiyyətində öz maraqlarını qorumağa, yaranan və ya yarana biləcək hər hansı təhlükə anında bunu balanslaşdıraraq öz lehinə çevirməyə imkan verən siyasi və iqtisadi imkanlara malikdir.

İran baxımından mümkün nəticələr aşağıdakı kimidir:

*Birincisi,* İran rəsmiləri hər zaman Azərbaycanla "qardaşlıq və islam həmrəyliyindən" bəhs etdikləri halda, İrandakı milyonlarla azərbaycanlını doğma dildə təhsil almaq, mədəni muxtariyyət əldə etmək imkanlarından məhrum edirlər. Buna qarşılıq olaraq isə erməni azlığın mədəni və

85 Levon Ter Petrosian, "History, Ideology, Typology", Speech at Freedom Square, 8 December, 2007, available at http://www.levonforpresident.am/?lang=eng

86 "Agenda for Armenian Foreign Policy 2009-2010", Yerevan, Armenia, 2009, s.38, http://www.acgrc.am/Agenda%20for%20Armenian%20Foreign%20Policy%202009-2010.pdf

87 Arman Melikyan: Armenia is a bad copy of Russia, 17 August 2010, http://www.panarmenian.net/eng/politics/news/52225/

dini maraqlarını qoruyurlar. Belə ki, İranda bu gün ermənilərə aid 29 xüsusi təhsil mərkəzi var. Bu sıraya uşaq bağçaları, orta məktəb və liseyləri də aid etmək olar. İranda yaşayan ermənilər öz ana dilində yazmaq və oxumaq imkanına sahibdirlər.[88] Burada Ermənistanın rəsmi dili olan şərq ermənicəsi istifadə edilməkdədir. İran ermənilərinin 200-ə yaxın təhsil və mədəni sahədə fəaliyyət göstərən qurumları mövcuddur.

*İkincisi,* İranın Milli Neft Kampaniyası "Şahdəniz" layihəsində 10%-lik paya sahibdir. Buna baxmayaraq, 2001-ci ildə İran gəmiləri Azərbaycanın Xəzər dənizindəki ərazisinə hücum etmiş, rəsmi Bakının diplomatik həmlələri və Türkiyənin qeyri-rəsmi cavabı ilə geri oturdulmuşdur. Azərbaycanın ikitərəfli əlaqələri enerji sektorunda da inkişaf etdirməsinə baxmayaraq, rəsmi Tehran Ermənistan ilə iqtisadi perspektivi olmayan layihələri reallaşdırmağa çalışır.

Bundan əlavə, Xəzər dənizinin hüquqi statusunun müəyyən olunması ilə bağlı İranın kəskin və uzlaşmaz mövqeyi səbəbindən problem hələ də həllinin tapmayıb. İranın Qərbin regionda təmsil olunmasını milli maraqlarına təhdid kimi qiymətləndirməsi səbəbindən rəsmi Tehranın enerji siyasəti uğur qazana bilmir. Avropa İttifaqının "Cənub dəhlizi"nin ən böyük layihəsi olan "Nabukko"nun İran qazına böyük ehtiyacı olduğu halda, rəsmi Tehranın öz milli maraqlarına zidd olaraq tutduğu mövqe onun bu layihədə iştirakını qeyri-mümkün edir.

88 Daha ətraflı məlumat üçün bax: Arman Poladyan, Religious minorities in Iran, Religion and Society Volume n.910, February 2010, http://hra.am/content/library/religion-10.pdf

*Üçüncüsü,* İran NATO və ABŞ-ın region ölkələri ilə əməkdaşlığına sərt reaksiya verərək, bunu öz təhlükəsizliyinə təhdid kimi görür. Ermənistan Prezidenti Serj Sarkisyanın inkar etməsinə baxmayaraq,[89] 2002-ci ildə Ermənistanla İran arasında müdafiə və təhlükəsizlik sahələri üzrə Yerevanda imzalanmış əməkdaşlıq haqqında Memoranduma görə,[90] hər iki tərəf hərbi məktəblərin kursantlarının mübadiləsindən tutmuş müdafiə təyinatlı məhsullar istehsal edəcək birgə müəssisələrin təsis olunmasınadək əməkdaşlıq etmək niyyətindədir. İran və Ermənistan müdafiə nazirlikləri arasında imzalanmış müqaviləyə əsasən, iki ölkə müharibə şəraitində arxa cəbhə təminatı üzrə əməkdaşlıq edəcəkdir. Belə olan halda İran rəsmilərinin son dövrlərdə Dağlıq Qarabağ probleminin həllində münaqişə tərəfləri arasında "neytral" qüvvə olaraq danışıqları təşviq etmək cəhdlərinin heç bir diplomatik əsası olmadığı anlaşılır. Ermənistanın Sivilatas Fondunun xarici siyasət üzrə eksperti Tatul Hakobyanın ifadəsi ilə desək: "1992-1994-cü illərdə rəsmi Tehran Ermənistanın ən çətin anlarında onun dünyaya inteqrasiyasında əsas dayaq nöqtəsi olmuşdur" və bu gün onun bu sülhpərvər cəhdləri Ermənistanı düşdüyü çətin vəziyyətdən çıxarmaq səyləri kimi qiymətləndirilə bilər.

*Dördüncüsü,* İranın xarici siyasətində doktrinal prinsiplərin uğursuzluğu fonunda region siyasətini formalaşdırdığı ay-

89 Yenə orada, Serj Sarkisyanın "Exo Moskva" radiosuna müsahibəsi

90 Emil Danielyan, Armenia: Yerevan Courts Unlikely New Security Partners -- The U.S. And Iran, Radio Free Europe, Yerevan, 29 March 2002 http://www.rferl.org/nca/features/2002/03/29032002101905.asp

dın olur. İranın daxilindəki və xaricindəki dəyişikliklər onu həm coğrafi, həm də "islam dövləti" kimi islam əsaslarının qorunması baxımından narahat edir.[91] ABŞ-ın Əfqanıstandakı mövcudluğu İranın güc balansını tarazlaşdırmaq üçün Rusiya ilə əməkdaşlığını genişləndirməsinə əsas verir ki, bu da islam prinsiplərinə əsaslanan İranın ideoloji problemlərini ortaya çıxarır. İranın Azərbaycanın işğal olunmuş ərazilərində narkotik vasitələrin ticarətinə, insan qaçaqmalçılığına göz yummasını, faktiki olaraq "boz zona" yaratmasını hər hansı bir dini ideologiya ilə izah etmək qeyri-mümkündür. Azərbaycan-İran sərhədinin faktiki olaraq Ermənistan tərəfindən nəzarət edilən 132 kilometrlik hissəsi aktiv şəkildə narkotik maddələrin istehsalı, tranziti və ticarəti, silah və insan alveri, qeyri-leqal miqrasiya, terrorçular üçün sığınacaq, çirkli pulların yuyulması və transmilli cinayətkarlığın digər təhlükəli növləri üçün istifadə olunur.

Beləliklə, indiki vəziyyətdə İranın Ermənistan ilə münasibətlərini intensivləşdirməsi, yuxarıda qeyd olunduğu kimi, iqtisadi göstəricilərə əsasən səmərəli sayıla bilməz, eyni zamanda regionda yaranmış situasiyada Azərbaycanın rəsmi Tehran ilə münasibətləri yaxın qonşuluq və dostluq şəraitində inkişaf etdirmə siyasətinə qarşı İranın onun daxili işlərinə qarışaraq cavab verməsi məntiqsiz görünür. 90-cı illərdən fərqli olaraq bu gün Azərbaycanın bu tipli təhdidlərə cavab verməyə həm iqtisadi, həm də hərbi potensialı və diplomatik bacarığı imkan verir. 1998-ci ildə Ermənistan Prezidenti L.Ter-Petrosyan özünün məşhur məqaləsində[92] Ermənistan cəmiyyətini "düşünməyə" dəvət edirdi. Görünür, hazırda həm İran, həm də Ermənistan rəsmilərinin düşünməyə ehtiyacı var. Yalnız unudulmamalıdır ki, düşünməyin məntiqi sonu ondan nəticə çıxarmaqdır.

Gələcəkdə İranın Ermənistanla geosiyasi münasibətlərini inkişaf etdirməyə çalışması İranın islam dünyası ilə ziddiyyətləri artıra bilər. Azərbaycanın geoiqtisadi əhəmiyyəti "dəhliz" deyil, "regional tranzit mərkəzi" paradiqması ilə assosiasiya olunur. Rəsmi Tehran tranzit məsələlərində Azərbaycanın artıq obyekt yox, subyekt, özü də güclü təsir rıçaqlarına malik bir regional oyunçu olmasını qəbul etməlidir. Bu baxımdan Azərbaycanın iradəsi əleyhinə gedərək İranın Ermənistanda gerçəkləşdirdiyi demo layihələr rəsmi Tehran üçün resurs və vaxt itkisi olaraq qalacaq. Hazırkı situasiyada Azərbaycanın ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş çoxşaxəli xarici siyasət strategiyası, habelə özünəməxsus və bəzən ziddiyyətli siyasət yürüdən regional və regiondan kənarda olan aktorlarla *modus vivendi*-nin tapılmasına çalışmasına imkan yaradan resursları İran-Ermənistan münasibətlərinin geosiyasi məntiqə uyğunlaşdırılmasını və rəsmi Tehranın işğalçıları dəstəkləməkdən əl çəkməsini zəruri edəcək.

91 Seyid Cəlal Dehkani, Əmniyyəte heste şenaxte dər siyasəte xarici Cumhure İslame İran, Revabete Xarici, bahar 1388, 1, s. 54.)

92 War or Peace? Time for Thoughtfulness, Levon Ter-Petrossian, 1998 http://khosq.com/hy/article/2009/08/06/war_or_peace_time_for_thoughtfulness_by_levon_ter_petrossian_1998

# Bibliografiya:


- "Agenda for Armenian Foreign Policy 2009-2010", Yerevan, Armenia, 2009 http://www.acgrc.am/Agenda%20for%20Armenian%20Foreign%20Policy%202009-2010.pdf
- Abdollah Ramezanzadeh,Iran's Role as Mediator in the Nagorno-Karabakh Crisis, Bruno Coppieters (ed), Contested Borders in the Caucasus, Chapter II, VUB University Press, 1996
- Akdevelioğlu, Atay, "İran İslam Cumhuriyeti'nin Orta Asya ve AzerbaycanPolitikaları", Uluslararası İlişkiler, Cilt 1, Sayı 2 (Yaz 2004), s. 132
- Alkhazashvili, M. "TBILISI: IAEA Chief Visits Armenian Nuclear Power Plant Metsamor." Armenian News for Diaspora. 3 Aug. 2005. Web. 09 Nov. 2010. http://www.armeniandiaspora.com/showthread.php ?33864-TBILISIIAEA-chief-visits-Armenian-nuclear-power-plant-Metsamor.
- Arman Melikyan: Armenia is a bad copy of Russia, 17 August 2010, http://www.panarmenian.net/eng/politics/news/52225/
- Arman Poladyan, Religious minorities in Iran, Religion and Society Volume n.910, February 2010, http://hra.am/content/library/religion-10.pdf
- Armenia | Data | The World Bank. Web. 29 Nov. 2010. <http://data.worldbank.org/country/armenia>.
- Armenia: Westward Foreign-Policy Shift Brings Unease in Iran http://www .eurasianet.org/departments/insight/articles/eav100502.shtml
- Armenia: Westward Foreign-Policy Shift Brings Unease in Iranhttp://www.eurasianet.org /departments/insight/articles/eav100502.shtml
- Azerbaijan's accumulation of weapons unpleasant, Iranian ambassador says http://news.am/eng/news/47316.html
- CIA Analysis, Iran's economy: a survey of its decline, (1991), http://www.foia.cia.gov/
- Clinton-Approved Iranian Arms Transfers Help Turn Bosnia into Militant Islamic Base, Congressional Press Release, US Congress, 16 January 1997 ;Serb leader: U.S. helped Iran arm Bosnians, http://www.militarytimes.com/news/2009/08/ap_us_arms_bosnia_082609/
- Danielyan, Emily. "Russia Tightens Grip on Armenia with Debt Agreements." Headlines I Eurasianet.org. 6 May 2003. Web. 09 Nov. 2010 . http://www.eurasianet.org/ department s/busine ss/article s/ eav050703.shtml.
- Emil Danielyan, Armenia: Yerevan Courts Unlikely New Security Partners -- The U.S. And Iran, Radio Free Europe, Yerevan, 29 March 2002,http://www.rferl.org/nca/features/2002/03/29032002101905.asp
- Export and import of the Republic of Armenia by countries, 2010, http://www.armstat.am/file/doc/99461633.pdf
- Export and import of the Republic of Armenia by countries, 2010, http://www.armstat.am/file/doc/99461633.pdf
- February 2011 report on Armenia by the Council of Europe's Anti-Racism Commission.
- Former Iranian Ambassador to Armenia: Azerbaijan appeared in isolation, Panarmenian, 09 September 2011, http://www.panorama.am/en/politics/2011/02/09/ambassador-iran/
- Fred Halliday, "Condemned to React, Unable to Influence: Iran and Transcaucasia", John F. R. Wright, Suzanne Goldenberg, Richard Schofield (der.), Transcasucasian Boundaries, New York, St. Martin's Press, 1996
- Griffin, Kieth, Thomas Kelley, Terry McKinley, Bargat Asatryan, Levon Barkhudaryan, and Armen Yeghriazarian.Growth, Poverty, and Inequality in Armenia. Rep. United Nations Develop-

ment Programme, 2002
- Harout Ekmanian, Armenia-Iran Relations In Light Of Recent Developments, Armenian Weekly – 24/11/2010
- Harout Ekmanian, Armenia-Iran Relations in Light of Recent Developments, 24 November 2010, http://www.armenianweekly.com/2010/11/24/ekmanian-armenia-iran-relations-in-light-of-recent-developments/
- http://socar.az/3004-news-view-az.html
- http://www.arka.am/rus/transport/2011/01/25/23616.html
- http://www.entrepreneur.com/tradejournals/article/197642455.html
- http://www.iran-daily.com/1388/3374/html/economy.htm
- http://www.shiitenews.com/index.php?option=com_content&view=article&id=2406:hia-ideology-seeks-to-create-muslim-unity-&catid=58:iran&Itemid=27
- http://www.state.gov/p/inl/rls/nrcrpt/2010/index.htm
- https://www.cia.gov/library/publications/the-world-factbook/geos/ir.html
- Huntington, Samuel (2006), Medeniyetler Çatışması ve Yeni Dünya Düzeninin Yeniden Kurulması", (Çeviren: Mehmet Turhan, Cem Soydemir), Okuyanus Yayınları,
- Iran to boost energy exports to Armenia, 2011, http://www.tehrantimes.com/index_View.asp?code=235090
- Iran's Dirty banking- How the Islamic Republic skirts International Financial Sanctions, p.3, http://www.redcellig.com/media/Irans_Dirty_Banking.pdf
- Iran-Armenia relations and the 'genocide', http://www.hurriyetdailynews.com/n.php?n=iran-armenia-relations-and-the-8216genocide8217-2010-08-29
- Iranian Ambassador to Armenia: Azerbaijan appeared in isolation http://www.panorama.am/en/politics /2011/02/09/ ambassador-iran/;
- Iran's Security Policy in the Post-Revolutionary Era, Impact on Foreign Policy, RAND Report,2001, http://www.rand.org/pubs/monograph_reports/MR1320/MR1320.ch6.pdf
- Joint Economic Commission With Armenia, http://iran-daily.com/1389/8/5/MainPaper/3811/Page/4/?NewsID=28565
- Karim Sadjadpour, Reading Khamenei: The world view of Iran's most powerful Leader (Washington DC: Carnegie Endowment for International Peace, 2008)
- Kaweh Sadegh-Zadeh, Iran's Strategy in the South Caucasus, Caucasian Review of International Affairs Vol. 2 (1) – WINTER 2008 © CRIA 2008
- Khachatrian, Haroutiun. "Competitive Edge: The pitfalls of monopolies, and the challenges of a business influenced parliament". ArmeniaNow.com. 04 Jan. 2008. Web. 09 Nov. 2010.http://www.armenianow.com/special_issues /agbumag/8033/ competitive_ edge_the _pitfalls_of_m.
- Lev Freinkman, Cost of Closed Borders for Armenia Trade, Journal of Economic Policy and Poverty,2010,
- Levon Ter Petrosian, "History, Ideology, Typology", Speech at Freedom Square, 8 December, 2007, available at http://www.levonforpresident.am/?lang=eng
- Mainville, By Michael. "Second-Largest Recipients of U.S. Aid, Armenians Fight To Get Ahead - August 9, 2005."The New York Sun. 9 Aug. 2005
- Mehdi Mozaffari, Iranian Ideological Foreign Policy, Centre for Studies in Islamism and Radicalisation (CIR), Denmark, April 2009,
- Minassian, Qaidz, 2008. Ermenistan, Rusiyanın Qafqazdakı avanpostu,? Russie.Nei.Visions,

No.27, 15 fevral, 2006, http://www.ifri.org/files/Russie/ifri_RNV_minassian_ Armenie_Russie _ANG_fevr2008.pdf.
- Mohammad Reza Djalili, Diplomatie islamique: stratégie internationale du Khomeynisme (Paris: PUF, 1989)
- Nana PETROSYAN, 'Bakü-Tiflis-Ceyhan Bölgede Güç Dengesini Bozuyor', http://www.azg.am/&num=2005052604
- National Security Concept of Armenia, s.19-20, http://www.natoinfo.am/eng/publications/documents/NationalSecurity_eng.pdf
- Nikolay Hovhannisyan, "Hayasdane Anderkafkasyan-Mercavor Arevelyan Aflharhakagakagan Darazaflercani Gorzon",The Countries and Peoples of The Near and Middle East XVIII, Yerevan 1999
- Olivier Roy, "The Iranian Foreign Policy Toward Central Asia",http://www.eurasianet.org/resource/regional/royoniran.html
- Power Swap With Armenia Will Double, http://www.iran-daily.com/1389/10/2/MainPaper/3852/Page/4/?NewsID=32317
- Richard Giragosian, Toward a new concept of Armenian National Security, Prepared for third Annual AIPRG International Conference 15-16 January 2005 The World Bank Washington DC, p.2-3
- Şabanov Gündüz, İran: siyasət milli maraqlarla ziddiyyətdə, http://www.525.az/vi ew.php?lang=az&menu=10&id=26015
- Sargsyan, Hakobyan Did Not Deny Armenia's Arms Transfer to Iran: WikiLeaks, http://www.epress.am/en/2010/12/07/sargsyan-hakobyan-did-not-deny-armenias-arms-transfer-to-iran-wikileaks/
- Seyid Cəlal Dehkani, Əmniyyәte heste şenaxte dər siyasəte xarici Cumhure İslame İran, Revabete Xarici, bahar 1388
- Svante E. Cornell, "Iran and the Caucasus", Middle East Policy (Jan 1998, v5, n4), p. 59
- Tehran Armenian patriarch felicitates supreme leader and president, 8/2/2011 Islamic Republic News Agency/IRNA NewsCode: 30232861
- Tehran says will oppose 'American forces' in Karabakh, http://www.armenianow.com/karabakh/23799/iran_karabakh_us_peacekeepers
- Tensions in Iran's National Security Strategy http://reut-institute.org/en/Publication.aspx?PublicationId=1769
- The Constitution of the Islamic Republic of Iran
- The Global Competitiveness Report 2010-2011, World Economic Forum
- Thomas Friedman, As Ugly as It Gets, New York Times, 26 may 2010 http://www.nytimes.com/2010/05/26/opinion/26friedman.html?hp=&pagewanted=print#
- US embassy cables: US fury at Armenia over arms transfers to Iran, Guardian 28 November 2010, http://www.guardian.co.uk/world/us-embassy-cables-documents/184879
- US imposes sanctions on Armenian entities 5/9/2002, http://www.nti.org/db /nisprofs/a rmenia/excondev.htm
- US imposes sanctions on Armenian entities, 5/9/2002, http://www.nti.o rg/db/nisprofs/armenia/excondev.htm
- Vahan Bayburtyan, "Hay-İranagan Haraberutyunnere Hayasdani Angahutyan Zerk Berumis Hedo", The Countries and Peoples of The Near and Middle East XVII, Erivan 1998, p.11
- War or Peace? Time for Thoughtfulness, Levon Ter-Petrossian, 1998 http://khosq.com/hy/ar-

ticle/2009/08/06/war_or_peace_time_for_thoughtfulness_by_levon_ter_petrossian_1998

- WikiLeaks: former President Ter-Petrossian was personally profiting from narcotics trade to Iran, http://www.panarmenian.net/eng/world/news/60585/WikiLeaks_former_President_Ter-Petrossian_was_personally_profiting_from_narcotics_trade_to_Iran
- Yossef Bodansky & Vaughn S. Forrest, Iran's European Springboard?, September 1, 1992, http://www.srpska-mreza.com/Bosnia/bodansky1.html
- Zbigniew Brzezinski. The Grand Chessboard American Primacy And It's Geostrategic Imperatives, 1998
- Иран намерен наращивать преимущественно экономическое сотрудничество с Арменией, http://www.regnum.ru/news/1181385.html
- Ирано-армянская дружба, или Пара слов о «моральном» праве судить соседей, 2011, http://1news.az/analytics/20110124012408830.html
- Ирано-армянская дружба, или Пара слов о «моральном» праве судить соседей, 2011, http://1news.az/analytics/20110124012408830.html
- Медведев: «Иран должен убедить мир, что развивает мирный атом», РИА Новости 27.01.2011, http://1news.az/region/Russia/20110127120447791.html
- Новые геоэкономические тенденции на Южном Кавказе, Игор Мурадян, 2010, http://geopolitika.ru/Articles/993
- Новые геоэкономические тенденции на Южном Кавказе, Игор Мурадян, 2010, http://geopolitika.ru/Articles/993
- Проект строительства второго участка автодороги Север-Юг будет готов в марте 2011 года – министр, http://www.miacum.ru/gaz eta/2010/12/24/Проект_стр оительства_второго_участка_автодороги_Север-Юг_будет_готов_в
- Рамиз Мехтиев: «Международный терроризм наряду с оккупацией территорий Азербайджана Арменией - угроза национальной безопасности страны», http://www.1news.az/politics/20101012012848473.html
- Энергетичекие интересы Ирана в Каспийском Регионе, Альберт Зульхарнеев, Индекс Безопасности, №2, 2009
- Энергетичекие интересы Ирана в Каспийском Регионе, Альберт Зульхарнеев, Индекс Безопасности, №2, 2009
- Эхо Москвы / Передачи / Интервью / Четверг, 27.01.2011: Серж Саргсян, президент Армении http://www.echo.msk.ru/programs/beseda/744902-echo.phtml

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

**İran-Ermənistan münasibətləri:**
geosiyasi reallıq *versus*
siyasi iddialar